Əbülfəz Rəcəbov

# Dil, Cəmiyyət, Şüur


- *Oxucuya*
- *Dil*

*Birinci Fesil: Dilin Mahiyyəti*
- *İşarədən Nitqədək*
- *Nitq və Fəaliyyət*
- *Əmək, Cəmiyyət və Dil*
- *Sözlər və Şeylər*
- *Dilin və Nitqin Funksiyaları*


## OXUCUYA

İnsanlar arasında ən mühüm ünsiyyət vasitəsi olan dil haqındakı bu kitabda dilin bəzi fəlsəfi məsələlərindən bəhs edilir. Həmçinin dilin mahiyyəti, onun insan həyatında oynadığı rol, dilin yaranması, işarədən nitqə doğru inkişafı fəlsəfi baxımdan araşdırılır. Adətən, elmi ədəbiyyatda iddia edilir ki, dil əmək fəaliyyəti zamanı cəmiyyətdə yaranmışdır, cəmiyyətdən kənarda dil yarana bilməzdi. Bu zaman unudulur ki, cəmiyyət özü də dilsiz mövcud ola bilməzdi. Qəribə vəziyyətdir: dil cəmiyyətsiz, cəmiyyət də dilsiz yaranmır. Bəs, onda necə olmuşdur ki, birinin varlığı digərini şərtləndirən və nə zamansa ikisi də mövcud olmayan bu iki ictimai hadisə əmələ gəlmişdir? Nitqin insan fəaliyyəti ilə əlaqəsi necə olmuşdur? Hansı əvvəl yaranmışdır: əmək, cəmiyyət, yaxud dil? Sözlərin əşyalara, əşyaların sözlərə münasibəti necədir? Əşyaların adları, ümumiyyətlə adlandırma təsadüfi, yaxud şüurlu olmuşdur? Dil və nitq arasındakı münasibət necədir? Müasir insanın həyatında dil nə kimi əhəmiyyətə malikdir? Bütün bu suallara müəllif tarix elmi baxımından yox, dilçilik və fəlsəfi elmlər baxımından cavab verməyə çalışmışdır.

Kitabda dil və şüur arasındakı münasibətlərə elmi baxımdan yanaşılır, bu münasibətlər fəlsəfə və psikologiya elmlərinin, xüsusən neyropsikologiyanın son nailiyyətləri əsasında araşdırılır. Bu nöqteyi-nəzərdən dil və cəmiyyət, dil və tarix problemlərinin tədqiqinə də kitabda geniş yer verilmişdir.

Kitab qabaqcıl dünya elminin mütərəqqi ideyaları əsasında yazılmışdır. Müəllif elmi ədəbiyyatda irəli sürülmüş fikir, ideya, nəzəriyyə və fərziyyələrə tənqidi yanaşmış, bunların müsbət və mənfi cəhətlərini oxucuya izah etməyə çalışmışdır.

Nəzərdən keçirilən və tədqiq edilən problemlərin mühüm bir qismi nəinki Azərbaycan dilində (Azərbaycan dilçiliyində yox!), eyni zamanda elmdə ilk dəfə qaldırılır. Muəllif bir sıra hallarda bu problemlərin həllində müasir elmi ideyalarla təzad təşkil edən fikirlər irəli sürur, bəzən müasir dilçilikdə qəbul edilməyən, bəzən isə tənqid edilən (rədd edilən desəydik, daha doğru olardı) ideyalara isnad edir. Lakin qeyd edilməlidir ki, müəllif dilin fəlsəfi məsələlərini tədqiq və izah edərkən hər yerdə dialektik və tarixi materializm fəlsəfi müddəalarından çıxış edir.

Qeyd edilməlidir ki, indiyədək tədqiqatçılar dilin fəlsəfə ilə bağlı problemlərindən danışarkən öz fikirlərini sübut etmək üçün Marks və Enqelsin əsərlərindən sitatlar gətirmiş, onların fikirlərinə əsaslanmışlar. Lakin heç kəs onların fikirlərindəki mənanın dərinliyinə diqqət yetirməmişdir. Marks və Enqels öz əsərlərində dil və təfəkkürün münasibətindən danışmamışlar, dil və şüurun münasibətindən bəhs etmişlər, halbuki istər Azərbaycan, istərsə də ümumiyyətlə sovet dilçiləri bu barədə həmişə Marks və Enqelsin məşhur sözlərinə müraciət etmişlər («Dil də şüur qədər qədimdir». «Dil başqa insanlar üçün mövcud olan və yalnız bununla da mənim özüm üçün mövcud olan praktik real şüurdur» və s.). Onların fikrincə, guya şüur və təfəkkür eyni hadisədir. Əksinə Marks və Enqels dil və təfəkkürün münasibətindən danışmaq istəsə idilər, «şüur» sözünü yox, «təfəkkür» sözünü işlədərdilər. Məhz bu kimi səbəblərə görə müəllif Marks və Enqelsin fikirlərinə müraciət etdikdə onların indiyədək verilmiş izahından çıxış etmir, əksər hallarda öz şərhini təqdim edir.

Lakin nəzərə almaq lazımdır ki, bu kitabda təqdim edilən dilin fəlsəfi problemlərinin əksəriyyəti elmdə ilk dəfə qaldırılır. Ona görə də güman edirəm ki, səhvlərim, yanlış, yaxud dolaşıq fikirlərim olmamış olmaz. Kitabda rast gələcəyiniz nöqsanlar və ümumiyyətlə kitabda qaldırdığım məsələlər barəsində fikir, məsləhət, arzu və təkliflərinizi mənə bildirsəniz, qabaqcadan öz minnətdarlığımı bildirirəm.

## *Dil*

İnsanı ətraf mühitə hakim edən, bütün canlıların fövqündə saxlayan dildir. İnsan dildən hər gün, hər saat istifadə edir. Çox vaxt insan həyatında idrakın, şüurun, təfəkkürün əhəmiyyətini ön plana çəkir, bunlarsız insanın insan kimi ümumiyyətlə mövcud ola bilməyəcəyini söyləyirlər. Bu zaman unudurlar ki, idrakın şüurun, təfəkkürün yaranması və formalaşmasında dilin əhəmiyyəti böyükdür. Dil olmasa idi idrak, şüur, təfəkkür haqqında, müasir insanın özü haqqında bu gün söhbət belə ola bilməzdi. İnsanı insan edən

dildir.

İnsan həyatında oynadığı nəhəng rola görədir ki, dilin yaranması, gerçəkliklə, şüurla, təfəkkürlə əlaqəsi, ümumiyyətlə dil problemi bütün dövrlərdə filosofları maraqlandırmış, dilçilik elmi yaranandan onun mərkəzi mövzusuna çevrilmişdir. «Dil nədir?» sualı dilçiləri dil haqqında elmin bütün tarixi boyu maraqlandırmışdır. Bu suala çoxlu və müxtəlif cavablar verilmişdir. Cavablar, müəlliflərinin elmi dünyagörüşünü əks etdirmiş, dilin tədqiqat metodlarının, dilin inkişafı, forma və qanunauyğunluqlarının müəyyənləşdirilməsinə ciddi təsir göstərmişdir.

Dilçilik elmi dilin mahiyyəti və təbiəti haqqındakı müddəalarında dialektik materializm fəlsəfəsinin prinsiplərinə əsaslanır. Bu müddəalara görə, dilin əsas funksiyaları kommunikativ (ünsiyyət), fikir (təfəkkür, nominativ - dil fikir alətidir), estetik-emosional və inikas funksiyalarıdır. Dil məhz kommunikativ və fikri formalaşdırma aləti funksiyaları sayəsində ictimai hadisə olur. Dilçilik elmi də dilə bu baxımdan - ictimai hadisə olması nöqteyi-nəzərindən yanaşır, dilin təbiətini, inkişaf qanunauyğunluqlarını, dillə şüurun və təfəkkürün, dillə cəmiyyətin qarşılıqlı əlaqə və münasibətlərini bu baxımdan öyrənir.

Dilə strüktur baxımından yanaşsaq, ona belə bir tərif verə bilərik: dil işarələr və onlar arasında əlaqələr sistemidir. Dilə onun funksiyaları, cəmiyyətdəki rolu və insan həyatındakı əhəmiyyəti baxımından yanaşdıqda isə ona belə bir tərif vermək olar: dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsi, insan fikrinin, təfəkkürünün formalaşması vasitəsi, insanların estetik-emosional hisslərinin ifadə vasitəsi, insanın mənəvi aləminin, əxlaqının, davranışının, xalqın mənəvi ruhunun formalaşması vasitəsidir. Biz bu tərifin son və ən kamil tərif olması fikrindən uzaq olsaq da, bizcə, o, Dilə indiyədək verilmiş təriflərin ən əhatəlisi, mükəmməlidir. Dilsiz cəmiyyət, deməli, insanın özü mövcud ola bilməz." Dil insanın insan kimi varlıq formasıdır.

Bütün bunlar dilin fəlsəfi tərifidir. Dilçilik elmi isə dili sırf dilçilik baxımından öyrənir. Dil hər şeydən əvvəl dil haqqında elmin, dilçiliyin tədqiqat obyektidir, predmetidir. Dilin nəzəri problemlərini - dil və şüur, dil və təfəkkür, dil və cəmiyyət, dilin təbiəti və mahiyyəti, dilin inkişaf qanunauyğunluqları, dilin qnoseoloji və ontoloji problemləri-dilçiliyin bəzən obrazlı surətdə dilin fəlsəfəsi adlandırılan ümumi dilçilik adlanan sahəsində öyrənilir.

Nəzəri dilçilik hər şeydən əvvəl dilin mahiyyəti problemini aydınlaşdırmaqla məşğul olur, çünki ən mühüm ünsiyyət vasitəsi olan dil bu və ya digər dərəcədə cəmiyyət, tarix, şüur, təfəkkür, psixika, fərdin nitq qabiliyyəti və s. ilə əlaqədardır. Məhz buna görə dilçilik dilin mahiyyəti məsələləri ilə az ya çox əlaqədar olan digər elm sahələri ilə «kəsişir», beləliklə, aralıq elm sahələri yaranır.

Əlbəttə, dil özü özündə olan, özü özü üçün olan varlıq, hadisə deyildir. O, obyektiv gerçəklikdə

mövcud olan digər varlıq və hadisələrlə sıx əlaqədardır. Dilin təbiətini düzgün müəyyənləşdirmək üçün onun digər obyektiv hadisələrlə əlaqəsini dialektik materializm mövqeyindən aydınlaşdırmaq lazımdır. Dilçiliyin tarixi dili başqa hadisələrlə yaxınlaşdırmaq halları ilə doludur. Nəzəri dilçilikdə dilin təfəkkürlə əlaqələndirilməsi əsasında məntiqi dilçilik və dil nəzəriyyəsinin mentalinqvistik aspekti, dilin insanın psiki fəaliyyəti ilə əlaqələndirilməsi əsasında psikoloji dilçilik və dil nəzəriyyəsinin psikolinqvistik aspekti, dilin digər ictimai institutlarla əlaqələndirilməsi əsasında sosioloji dilçilik və dil nəzəriyyəsinin sosio-linqvistika və etnolinqvistika aspekti, dilin təbiət hadisələri ilə əlaqələndirilməsi əsasında naturalist dilçilik və dil nəzəriyyəsinin akustik-fizioloji aspekti yaranır.

XIX əsrin ortalarından başlayaraq dilə vahid bütöv kimi baxılmır. Son zamanlar, xüsusən F. de Sössürdən başlayaraq, nitq fəaliyyətində dil və nitq qarşılaşdırılması (antinomiyası, dixotomiyası) göstərilir.

Dili daha çox dil və nitq deyə qarışdırırlar. Dilin belə parçalanması onun bir bütöv vahid kimi tədqiq edilməsinə mane olur. Əslində dil və nitq qarşılaşdırılması şərtidir. Nitq (yaxud nitqlər) dilin rəngarəng fərdi təzahür formasıdır (formalarıdır). Bu məsələyə sonra qayıdacaq və onu geniş surətdə nəzərdən keçirəcəyik. Burada isə ancaq onu qeyd etməyi lazım bilirik ki, nəzəri dilçilik, əsasən, dil problemləri ilə məşğul olmalı, nitq haqqında isə təkcə ümumi müddəalar irəli sürməklə kifayətlənməlidir; nitq problemlərini sahə dilçilikləri tədqiq etməlidir.

Dilin tədqiqində ikinci çətinlik subyektlə tədqiqat obyekti arasındakı münasibət məsələsidir. Dilçiliyin tədqiqat obyekti, predmeti nədir? Şübhəsiz ki, dildir. Materialist idrak təlimində subyektlə tədqiqat obyekti arasındakı qarşılıqlı münasibətlərə əsas yer verilir. Tədqiqatın nəticəsi subyektin tədqiqat obyektinə bəslədiyi münasibətdən xeyli dərəcədə asılıdır. Bu münasibətin necəliyindən asılı olaraq tədqiqatın nəticəsi obyektiv də, subyektiv də ola bilər. Hətta obyektiv münasibətdə belə bütün obyektiv nəticələrlə yanaşı subyektiv momentlər də nəticədə müəyyən dərəcədə özünü göstərməlidir, çünki, bizim hisslərimiz, qavrayışlarımız obyektiv aləmin subyektiv obrazlarıdır; qavrama subyektiv ideyalardan obyektiv həqiqətə doğru hərəkətdir. Qavrama nə qədər geniş, ətraflı və dərin, tədqiqatın obyekti haqqında bildiyimiz nə qədər əhatəli və dəqiq olarsa, tədqiqatın nəticəsində subyektivlik bir o qədər az olar. Buna görə də tədqiqatın sonunda subyektivlikdən çəkinmək üçün tədqiqatçı tədqiqat obyektini özü üçün mümkün qədər dəqiq müəyyənləşdirməlidir. Bu baxımdan dilçiliyə nisbətən bütün digər elm sahələri ilə məşğul olanların bəxti gətirmişdir, çünki onların tədqiqat obyekti bilavasitə müşahidə edilə bilər, halbuki bir ünsiyyət vasitəsi kimi dili bilavasitə müşahidə etmək mümkün deyildir. Müəyyən bir fərdin nitqini - şifahi şəkildə nitq fəaliyyəti və nitq aktını, yazılı şəkildə yenə də sırf fərdi olan və nitqin yazıya köçürülmüş formasını, mətni - müşahidə etmək olar, ayrı-ayrı fərdlərin nitqini müşahidə etmək olar (qəribədir, belə çıxır ki, nitq var, dil yoxdur, dil fiksiyadır); bütövlükdə dili müşahidə etmək qeyri-mümkündür. Mətnlər üzərindəki müşahidələri toplasaq, yenə də dil üzərində deyil, mətnlər toplusu üzərindəki müşahidəni alarıq. Mətnlər toplusu heç də dil demək

deyildir, L. V. Şerbanın dili ilə desək, dil materialıdır. Dilçinin tədqiqat obyekti isə mətn və yaxud mətn toplusu ola bilməz. Bütövlükdə «insanların ünsiyyət, ifadə, fikir və digər informasiyaları nəqletmə vasitəsi olan dil strukturuna və vəzifəsinə görə üç müxtəlif keyfiyyətə malikdir. Dil- bu,

a) dil strukturu (yaxud sistemi), onun vahidlərinin, kateqoriyalarının, sistemlərinin daxili mütəşəkkilliyidir;

b) tarixən əmələ gələn və sonrakı inkişafa qabil olan dil normasıdır;

v) dili, onun strukturunu və normalarını bilən və onlardan öz fikir, iradə, hisslərini ifadə etmək, nitq məhsulu yaratmaq üçün istifadə edən fərdlərin nitq fəaliyyətidir.

L. V. Şerbanın dili ilə desək, dilçiliyin predmeti dil-struktur (sistem), dil-norma, dil-danışanların fəaliyyəti kimi üçlükdür.

Dilin tədqiqinin müxtəlif aspektlərinin mövcudluğu dilçiliyin predmetinin müxtəlifliyini göstərmir, onun vahidliyini danmır. Tədqiqat aspektinin müxtəlifliyi dilçiliyin predmetinin dəyişkənliyini də göstərmir; dilçiliyin predmeti dəyişmir, dəqiqləşdirilir. Tədqiqat aspektinin müxtəlifliyi subyektin obyektə münasibətindən, tədqiqatçının istifadə etdiyi metodun müxtəlifliyindən irəli gəlir. Nəzəri dilçilik dil haqqında onun tədqiqinin bütün aspektlərini əhatə edə bilən ümumi təsəvvür yaratmalıdır.

Dialektik və materialist fəlsəfəyə görə, tədqiqat obyekti öz-özlüyündə vahid və bütövdür, predmetin özündə ziddiyyət olmur. Tədqiqat aspektinin müxtəlifliyi obyektə baxışda bu və ya digər əlamətin daha qabarıq göstərilməsinin nəticəsidir.

# *Birinci Fəsil*

# *DİLİN MAHİYYƏTİ*

## *İşarədən Nitqədək*

Dil insan həyatının, fəaliyyətinin elə bir sahəsidir ki, onsuz (dilsiz) nəinki insanın fəaliyyətini, hətta bir ictimai, sosioloji varlıq kimi insanın özünün varlığını, mövcudluğunu təsəvvürə gətirmək belə mümkün deyildir; dilsiz insan ictimai varlıq olmaqdan çıxıb bioloji varlığa çevrilir. Dilin insan həyatındakı əvəzsiz əhəmiyyətinin nəticəsidir ki, ictimai varlıq olan insan, demək olar ki, öz varlığını dərk etdiyi ilk vaxtlardan başlayaraq dilin yaranması, mənşəyi haqqında müxtəlif fikirlər-fərziyyə və nəzəriyyələr, nağıl və əfsanələr irəli sürmüşdür. Bu fikirlərin bir qismi elmi səciyyə daşımış, digər qismi elmdən uzaq olmuş, bəzisi idealizm cəbbəxanasından götürülmüş, bəzisində dualizm ruhu özünü göstərmişdir. Xüsusən XIX əsrdən sonra irəli sürülən fikirlərin mühüm hissəsi materializm dünyagörüşünə əsaslanmışdır.

Bir zamanlar dilin mənşəyi, yaranması ilə nəinki elm, hətta din də maraqlanmışdır. Bu haqda Tövratda, İncildə, Quranda müxtəlif fikirlər söylənmişdir. Hətta bu müqəddəs kitablarda dilin əmələ gəlməsi məsələsinin izahında belə, təəccüblü görünsə də, materializm və idealizm dünyagörüşü rüşeymlərinə təsadüf edilir. Biz həmin kitablarda dilin yaranması haqqında irəli sürülən fikirləri təhlil etmək fikrində deyilik, çünki bu ehkamların təhlili dilin fəlsəfəsinin yox, dilin tarixi fənninin mövzusudur. Yəhudilərin, xaçpərəstlərin və müsəlmanların dini kitablarında dilin yaranması haqqında bir-birinə yaxın iki fikir irəli sürülür: 1) guya Adəmi yaradan Allah dünyadakı əşyaları bir-bir ona göstərib onların adlarını deyir; 2) Allah Adəmi xəlq etdikdən sonra dünyadakı əşyaları adlandırmağı onun özünə həvalə edir. Birinci fikir o deməkdir ki, dil insana (Adəmə) Allah tərəfindən bağışlanmışdır. Bu, mahiyyətcə idealist fikirdir, çünki dilin fövqəlbəşər qüvvə tərəfindən insana əta edilməsi ideyasını irəli sürür. İkinci fikrə görə isə dili insan (Adəm) özü yaratmışdır. Dini ehkam üçün qəribə səslənsə də bu fikirdə materializmin ibtidai rüşeymini görmək olar. Təfərrüatına varmadan təqdim edilmiş bu fikirlər bir daha sübut edir ki, hətta dini ehkamlarda belə (din xadimlərinin bunu istəyib-istəməməsindən asılı olmayaraq) ibtidai, primitiv şəkildə olsa da dilin əmələ gəlməsi haqqında idealist və materialist dünyagörüşünün mübarizəsi özünü göstərir. Antik dövrdə bu mübarizə Yunanistanda şeylər və onların adı arasındakı əlaqə haqqında məşhur fəlsəfi mübahisə şəklində təzahür edir. Orta əsrlər, yeni və ən yeni dövrlərdə də dilin əmələ gəlməsi haqqında bir sıra fərziyyə və nəzəriyyələr irəli sürülür. Lakin dialektik və tarixi materializmə qədərki bütün fərziyyə və nəzəriyyələrdə dilin əmələ gəlməsi həqiqi elmi əsasda izah edilmir. Yalnız eramızdan əvvəl yaşamış məşhur yunan

materialist filosofu Epikurun söylədiyi - dil ehtiyac nəticəsində, insanların bir-birinə nə isə söyləmək ehtiyacı hiss etməsi nəticəsində əmələ gəlmişdir fikri, dilin əmələ gəlməsinin materialist (əlbəttə, ibtidai materialist) izahına yaxınlaşır.

Dilin əmələ gəlməsinin elmi izahını dialektik materialist fəlsəfə vermişdir. K. Marks və F. Enqelsin irəli sürdükləri bu nəzəriyyəyə görə, insan da, dil də eyni zamanda əməklə, əmək prosesi nəticəsində yaranmışdır. F. Enqelsin «Meymunun insana çevrilməsi prosesində əməyin rolu» adlı əsərində dilin mənşəyi, «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» adlı əsərində isə dilin tarixi inkişafı uzaqgörənliklə (ona görə uzaqgörənliklə deyirik ki, onun irəli sürdüyü bir sıra problemlər sonralar elmin, xüsusən arxeologiya və psixologiya elmlərinin nailiyyətləri əsasında sübut edilmişdir) əsaslandırılmışdır. Burada həmin əsərlərin təhlilini vermək, dilin əmələ gəlməsi haqqında materialist nəzəriyyəsini izah etmək, ümumiyyətlə, dilin mənşəyi probleminin birbaşa şərhini vermək məqsədi qarşıya qoyulmamışdır. Belə bir izah, ümumi dilçiliyin ibtidai kursunun mövzusuna daxil edildiyi üçün bura da yalnız dilin yaranmasının nəzəri fəlsəfi-psikoloji izahını vermək nəzərdə tutulmuşdur.

Əslində dilin mənşəyi problemi dilçiliyin deyil, fəlsəfənin mövzusudur, lakin hər halda dillə əlaqədar olduğu üçün bu problemin dilçilikdə də nəzərdən keçirilməsi faydalı olardı.

Dilin mənşəyinə həsr edilmiş müxtəlif istiqamətli (dilçilik, fəlsəfi, psikoloji və s.) elmi əsərlərdə tədqiqatçılar dilin yaranmasının materialist şərhində F. Enqelsin «Meymunun insana çevrilməsi prosesində əməyin rolu» adlı əsərinə isnad edirlər. Onlar göstərirlər ki, Enqelsə görə, insanı da, dili də əmək yaratmışdır: insanın ulu əcdadları olan insanabənzər meymunlar əməklə məşğulolma prosesində insana çevrilmişlər: əmək təklikdə mümkün olmadığı üçün əmələ gəlməkdə olan insan sürülər halında birləşmiş (sürü halında birləşmədə düşmənə qarşı qorunmaq amili də mühüm rol oynamışdır) və bir-birinə nə isə demək, ünsiyyət ehtiyacı hiss etmişdir və beləliklə, dil meydana gəlmişdir. Elmi ədəbiyyatda Enqelsə isnad edilərək irəli sürülən dilin yaranmasının sxemi belədir.

F. Enqelsin dilin mənşəyi haqqındakı fikirlərinin izahı elmi materializm baxımından tamamilə doğrudur, lakin onun materialist izahını bu qədər primitivləşdirmək düzgün deyildir. Enqels öz əsərlərində qeyd etmir ki, dil birdən-birə yaranmışdır. Onun sözlərini belə primitiv şəkildə qəbul və izah etmək ən azı materializmi bayağılaşdırmaq deməkdir. Bundan başqa, Enqelsin həmin əsəri yazdığı vaxtdan keçən yüz ildən də çox müddətdə ümumiyyətlə elmdə; xüsusilə bu problemin izahı və həllində müstəsna rolu olan psixologiya və arxeologiya elmində nəhəng nailiyyətlər əldə edilmişdir. Dilin mənşəyi probleminin izahında elmin Enqelsdən sonrakı müvəffəqiyyətlərini nəzərə almamaq dialektik materializmə etinasızlıqdır.

Dilin yaranmasını əməklə əlaqələndirməkdə Enqels tamamilə haqlıdır. Lakin problemin həllini bu qədər sadələşdirmək olmaz. İlk meymun-insanın (pitekantrop) yaranması, ilk insanın əməklə məşğul olması

və ilk mənalı insan səslərinin - dilin yaranması arasında hətta tarix üçün uzun müddət keçmişdir.

Dilin - insan nitqinin mənşəyi problemini tədqiq etmək üçün ən azı dörd kompleks elmi biliklər lazımdır:

1) müasir ümumi dilçilik, xüsusən onun işarələr haqqında elm olan semiotika bölməsi;

2) müasir psikologiya elminə inqilabiləşdirici təsir göstərən psikolinqvistika (yaxud nitqin psikologiyası);

3) ikinci siqnal sisteminin fiziologiyası, nitqin normal və patoloji nevropsixologiyası;

4) beynin və nitq fəaliyyəti orqanlarının təşəkkül morfologiyası (B.F.Porşnev- O naçale çeloveçeskoi istorii. M., 1974 ).

Meymunun insana çevrilməsi prosesi üçüncü dövrdə yaşamış insanabənzər meymunlardan-avstralopiteklərdən başlanır. Avstralopiteklər canlı təbiətin (heyvanların) insanaqədərki inkişafı ilə insan arasında keçid pilləsi təşkil edir. Avstralopitekin tapılmış skeletləri göstərir ki, onlar dörd ətraf üstdə yeriyən müasir insanabənzər meymunlardan fərqli olaraq iki dal ətraf - indiki kimi desək, iki ayaq üstdə yerimişdir. Bəzi tədqiqatçılar belə fikir yürüdürlər ki, guya avstralopitek yarımbükülü vəziyyətdə yerimişdir, lakin müasir elm sübut edir ki, belə yürüş mümkün deyildir. Avstralopiteklər çöldə, yəni açıq yerdə yaşamışdır. İki ayaq üstdə yeriməkdən başqa avstralopitekləri insana yaxınlaşdıran bir də onların dişlərinin quruluşudur: qorilla və şimpanzədən fərqli olaraq avstralopiteklərin qabaq dişləri kiçikdir və o qədər də qabağa çıxmamışdır. Avstralopitekin beyni insan beynindən daha çox meymun beyninə yaxın olmuşdur. Avstralopiteki meymuna yaxınlaşdıran bir də odur ki, o, əmək aləti hazırlamamış, təbiətdəki hazır alətlərdən - çaydaşı və doyənəkdən istifadə etmişdir. Bunu iki amil sübut edir: birincisi, avstralopitek iki ayaq üstdə yeridiyi üçün təqib etdiyi heyvana çata bilməzdi; ikincisi, onun yırtıcı dişləri olmadığı, fiziki cəhətdən tam mühafizəsiz olduğu üçün (nəzərə almaq lazımdır ki, avstralopitek açıq çöldə yaşadığı üçün düşməndən gizlənə də bilmirdi) özünü müdafiə üçün mütləq bir alətdən istifadə etməli idi. Onu da qeyd etmək lazımdır ki, yırtıcılardan müdafiə və iri heyvanları ovlamaq üçün avstralopiteklər sürü halında birləşmişdilər: bunu Strekfonteyn mağarasında (Pretoriya şəhəri yaxınlığında) on iki kəllə sümüyünün tapılması da sübut edir. Elmi dəlillərlə göstərirlər ki, avstralopitekin beyni şimpanze tipli antropoidlərin beyninə daha yaxın olmuş və Homosapiens beyni üçün spesifik olan heç bir əlamətə malik olmamışdır. Belə çıxır ki, insanın əsas fərqləndirici xüsusiyyəti olan süni daş alətlər hazırlamaqla meymun beyninə malik olmaq bir araya sığır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bəzi heyvanlar da alətdən istifadə edir; məsələn, Cənubi Afrikada yaşayan kaputsin meymunları qozu daşla sındırıb yeyirlər. Avstralopiteklərdə müşahidə edilən əmək fəaliyyəti (alətdən istifadə etmə) və ictimai həyatın (sürü halında birləşmənin) rüşeymləri onları təkamülün aşağı səviyyəsində duran başqa canlılardan fərqləndirmirdi.

Avstralopiteklə heyvanlar aləminin təkamülü bitir. Təkamülün növbəti pilləsi ən qədim insanın - pitekantropun (meymun-insanın) meydana gəlməsinə səbəb oldu. Adətən, insanın təkamülünə həsr edilmiş əsərlərdə insanın pitekantrop dövrünü arxsoantroi, paleoantrop, qiqantopitek və meqantrop yarımdövrlərinə bölürlər, bəzi əsərlərdə isə insanın təkamülünü pitekantrop (buraya xüsusi pitekantrop dövründən başqa sinantrop və Heydelberq adamı dövrlərini də aid edirlər) və neandertal (qədim adam) dövrlərinə bölürlər. Çox vaxt yarım-dövrlər daha kiçik mərhələlərə bölünür; məsələn, paleoantrop yaxud neandertal yarımdövrü: 1) cənub (Rodeziya tipi), 2) klassik (şapel tipi), 3) presapiyent (şteynkeym - eringsdorf tipi) və 4) keçid (Fələstin tipi) mərhələlərinə bölünür.

Çox vaxt elmi ədəbiyyatda insanın təkamülünü beynin həcmi ilə də əlaqələndirirlər. Beynin həcminin insana-bənzər meymundan insana qədər keçdiyi təkamülü nəzərdən keçirək: oranqutanq-443 kub sm, şimpanze -410 kub sm, qorilla-510 (415-685) kub sm, avstralopitek-650 kub sm, parantrop-650 (490-815) kub sm, sinantrop 1000-1100 kub sm. neandertal adamı-1100-1600 (çox vaxt orta rəqəm 1600 götürülür) kub sm, müasir adam-1200-1700 (çox vaxt orta rəqəm 1400 götürülür) kub sm.

Kəllə tağının hündürlüyü: şimpanzedə-42.5 mm, pitekantrop və sinantropda 62,9 mm, Cəbəllütariqdə» tanınmış neandertal adamında 81,1 mm, müasir insanda 89 mm.

Gətirilən rəqəmlər göstərir ki, neandertal adamının beyninin orta həcmi müasir insanın beyininin orta həcmindən daha böyükdür. Belə çıxır ki, neandertal adamı müasir insandan daha çox inkişaf etməli idi. Lakin həyatda belə olmamışdır. Bunun səbəbini beyin hissələri arasındakı tənasübün dəyişməsində görürlər: neandertal adamının beyninin ön hissəsi müasir adama nisbətən daha az olmuşdur. Beyin həcmləri arasındakı nəhəng fərqə baxmayaraq, neandertal adamının kəlləsinin forması pitekantropun kəlləsinin formasından o qədər də fərqlənmir. Bunu onların və müasir insanın alınlarının formasında görmək olar: sinantropun alnının enmə bucağı 60,5, neandertal adamının alnının enmə bucağı 63, müasir insanın alnının enmə bucağı təxminən 90 dərəcədir. Bununla belə neandertal adamının kəlləsi ilə pitekantropun kəlləsi arasında müəyyən fərq vardır: neandertal adamının alnı pitekantropun alnından enlidir, kəlləsinin yuxarı hissəsi genişdir. Daha bir məsələni də qeyd etmək lazımdır: avstralopitek kimi, pitekantrop da əmək aləti hazırlamamışdır, əmək aləti hazırlamağı bacarmamışdır; o vaxtadək daşdan parçalar qoparmışdır ki, bu daş işlətmək üçün yararlı olmuşdur. Bir sıra mütəxəssislər iddia edirlər ki, bu dövrdə insanın (pitekantropun) əməyi (hərəkəti) şüurlu olmuş, əl və təfəkkür insan tələbatına bilavasitə xidmət etmişdir. Lakin bu dövrdə əməyin şüurlu olmasından, əmək prsosesində təfəkkürün iştirakından danışmaq olmaz. Bu dövrdə əmək alətləri hazırlanması hərəkət komplekslərinin avtomatik imitasiyası yolu ilə baş verir. Heyvanların bu növ həyat fəaliyyətini adlandırmaqda dialektik fəlsəfə instinktiv heyvan əməyi məfhumundan istifadə etmişdir. Elm belə hesab edir ki, bioloji mənada əmək insanın heyvan əcdadında nitqdən çox min illər əvvəl, cəmiyyət isə nitqdən xeyli sonra yaranmışdır. Məlumdur ki, klassiklərdən bir nəfər Bencamin Franklinin

instrumentalizminə istehza etmiş, onun məşhur «insan alətdüzəldən heyvandır» (a tool making animal) aforizmini yankilər əsri üçün səciyyəvi hesab etmişdir. Materializm əmək dedikdə nəyi nəzərdə tutur? Biz əməyi ancaq insana məxsus olduğu formada nəzərdə tuturuq. Hörumcək toxucunun əməliyyatını xatırladan bir əməliyyat icra edir, bal arısı da mumdan şan qayırması ilə bəzi memar adamları utandırır. Lakin ən pis memar da ən yaxşı bal arısından lap əvvəldən bununla fərqlənir ki, memar hələ mumdan şan qayırmazdan əvvəl bunu öz beynində qayırıb hazırlamış olur. Əmək prosesinin sonunda alınan nəticə artıq bu prosesin əvvəlində insanın təsəvvüründə, yəni ideal surətdə mövcud olur. İnsan nəinki təbiətin verdiyi şeyin formasını dəyişdirir; təbiətin verdiyi şeydə o öz şüurlu məqsədini həyata keçirir. Bu məqsəd bir qanun olaraq insan fəaliyyətinin üsulunu və xarakterini müəyyən edir və insan öz iradəsini bu məqsədə tabe etməli olur. Həm də insanın öz iradəsini bu məqsədə tabe etməsi tək bir hal deyildir. Əməyi icra edən əzaları gərginləşdirilməsindən əlavə, əməyin sərf edildiyi bütün müddət ərzində müəyyən məqsəd güdən iradə də zəruridir ki, bu da işə dinət verməklə ifadə olunur, həm də əməyin məzmunu və onun icra üsulu fəhləni nə qədər az maraqlandırırsa, deməli, fəhlə öz fiziki və əqli qüvvələrinin hərəkətindən ibarət olan əməkdən nə qədər az zövq alarsa, həmin iradə bir o qədər artıq dərəcədə zəruridir. Qeyd etmək lazımdır ki, məqsədə, iradəyə tabe edilmiş fəaliyyət şüura xas xüsusiyyətdir, şüur isə, Marksın dediyi kimi, lap əvvəldən ictimai məhsul olmuş və ümumiyyətlə insanlar mövcud olduqca elə də qalacaqdır.

Artıq sübut edilmişdir ki, əməklə məşqul olmasına baxmayaraq avstralopitek, pitekantrop və neandertal adamı nitqə malik olmamışdır; burası da məlumdur ki, müasir insanın hər üç əcdadı sürü halında yaşamış, deməli, ictimai varlıq olmuşdur. Avstralopitek, pitekantrop və neandertal adamının nitqə malik olmamasını mütəxəssislər onların alnının yastı (alnın enmə bucağının az olması) və ensiz olması ilə izah edirlər. Nevropsixologiya elmi sübut etmişdir ki, müasir insanın beynində nitq məzrkəzi alın və alın-gicgah nahiyəsində, görmə və eşitmə mərkəzləri isə beynin arxa hissəsində yerləşir. Nəinki avstralopitek və pitekantropun, hətta neandertal adamının da beyninin alın hissəsi zəif, arxa hissəsi isə güclü inkişaf etmişdir; müasir, insanın isə beyninin alın hissəsi güclü inkişaf etmiş,, beynin arxa hissəsi zəif inkişaf etmişdir. Nevropsixologiya sübut edir ki, təkamülün neoantrop dövründə baş beynin (beyin yarımkürələrinin) morfologiyasında əsaslı dəyişikliklər baş verir: beynin arxa hissəsinin kəskin surətdə azalması hesabına beyin qabığının alın hissəsinin, xüsusən onun yuxarı hissəsinin prefrontal bölməsi Homo sapyens-də sürətlə inkişaf edir. Təkamülün məhz bu mərhələsində paleoantropun kiçik bucaqlı alnı və alçaq kəllə tağı əvəzinə bizim, az qala, dik alnımız və kəlləmizin yüksək tağı meydana gəlir. Bütün bu amillər sözün insan davranışını idarə edən faktor kimi yarandığını göstərir. Deməli, insanın ilk əcdadları nitqə malik olmamış, əvəzində həssas eşitmə və hətta qaranlıqda belə görmə qabiliyyətinə malik olmuşdur. İnsanın hələ nitq qabiliyyətinə malik olmayan ulu əcdadlarının sürü halında yaşadıqlarını, deməli, cəmiyyət halında birləşdiklərini nəzərə alaraq, onların bir-birilə ünsiyyət saxladıqlarını qəbul etməliyik. Bəs insanın ulu əcdadları hansı vasitələrlə ünsiyyət saxlamışlar? «Dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsidir»,

lakin göründüyü kimi, yeganə ünsiyyət vasitəsi deyildir.

İnsan dili ulu əcdadlarımızın işarələrlə ünsiyyətindən müasir dilin üzvlərinə bölünən səsli-sözlü nitqindən uzun və tədrici təkamül, inkişaf yolu keçmişdir. Adətən, dil dedikdə səsli-sözlü nitq nəzərdə tuturlar. Lakin nəzərə alsaq ki, dil ümumiyyətlə ünsiyyət vasitəsidirsə, onda səsli-sözlü aydın nitq onun növlərindən biri, süni ünsiyyət vasitələrini nəzər almasaq, sonuncusudur.

Bəşəriyyət insanın yaranmağa başlanmasından üzvlərinə bölünən səsli-sözlü aydın nitqin meydana gəlməsinədək uzun bir inkişaf yolu keçmişdir. Müasir insanın ulu əcdadları olan insanabənzər varlıqların (elmi ədəbiyyatda bunları bəzən troqloditid də adlandırırlar) sürü halında yaşadıqlarını, deməli, cəmiyyət halında birləşdiklərini qəbul etsək, deməli, onların arasında ünsiyyətin olduğunu da qəbul etməliyik çünki ünsiyyətsiz heç bir cəmiyyət, heç bir sürü mövcud ola bilməz; ünsiyyətsiz yalnız ayrı-ayrı fərdlər, nəinki sosial, hətta heç bir heyvani münasibətlərə girməyən fərdlər mövcuddur. Hər hansı iki fərdin (hətta ikiğ quşun, iki heyvanın) münasibəti artıq ünsiyyətdir. Ünsiyyət isə dilsiz mövcud ola bilməz. Ünsiyyət vasitəsi kimi işarələr sistemini dil kimi qəbul etmək olur. Bu mənada bütün canlılar dilə malikdir.

Çox vaxt nağıl və dastanlarda ağıllı vəzirlər, dünya görmüş qocalar, sehirli qüvvəyə malik adamlar bütün quşların və heyvanların dilini bilir. Əlbəttə, bu, real iddia deyildir. Lakin istehza edib «quşların, heyvanların da dili olar?» demək də düzgün deyildir. Quşların, heyvanların dilinin olması bir məsələ, insanın onları başa düşə bilməsi problemi başqa məsələdir.

Son zamanlar elm sübut etmişdir ki, suda-quruda yaşayanların, quşların, məməlilərin «dilləri» vardır. Moskva Dövlət Universitetinin tədqiqatçıları son illər 500-dən çox suda-quruda yaşayan quş və məməli növünün (qurbağadan başlamış canavaradək) «dilini» tədqiq etmişlər. Dünyanın hər yerində tədqiqatçılar uzun illərdir ki, meymunların dili üzərində tədqiqat aparırlar.

Tədqiqatçılar müəyyənləşdirmişlər ki, toyuqların «dili 200 hers tezlikli diapazona uyğun gəlir, çox: mürəkkəb və mükəmməldir: o, onlarca müxtəlif siqnallardan ibarətdir. Toyuğun təlaş bildirən siqnalı bir neçə-çalara malikdir: düşmən havada göründükdə bir cur, qurudan gəldikdə başqa cür siqnal verilir; cücələr də həmin siqnala uyqun hərəkət edir. Müəyyənləşdirilmişdir ki, hətta cücələri yeməyə çağırdıqda belə toyuq müxtəlif siqnallar verir. Qəribə burasıdır ki, yumurtadan çıxmazdan uç gün əvvəl embrion qırt toyuqla danışmağa-başlayır: hətta bu vaxt yumurtanı qulağa tutduqda embrionun çıxardığı səsləri eşitmək mümkündür. Bu siqnalları insan dilinə çevirsək, belə çıxır: «mənə istidir», yaxud «mən üşüyürəm». Hansı siqnalın verilməsindən asılı olaraq toyuq ya yumurtanı çevirir, ya yumurtanın üstündən durur, yaxud yem axtarışını dayandırıb yumurtanın üstündə oturur.

«Pravda» qəzetinin 23 sentyabr 1982-ci il tarixli nömrəsində «Quş dili, o necədir?» adlı bir yazıda

deyilir:

«Nağıllarda quşlar danışır, doğrudan da onlar bir-birini necə başa düşürlər? Məlum olmuşdur ki, qanadlılar hər halda «danışırlar». Ancaq sözlərlə yox. Quşlar aləminin nümayəndələri işarələrlə danışırlar, bu işarələr çoxdur: çığırtılar, fitlər, təmas, müəyyən iylər, işıq, yaxud alabəzək ləkələrin köməyilə siqnal-vermə, qeyri-adi duruş.

Alimlər heyvanat aləminin «dili» ilə yalnız 35-40 il bundan əvvəl maraqlanmağa başlamışlar. Qanadlılar arasında ən çox yayılmış ünsiyyət vasitəsi səslər, müxtəlif səslənməyə malik səslərdir. Alimlər hesablamışlar: quşların cəh-cəhi, nəğmələri 400-ə qədər çalara malikdir. Məlum olmuşdur ki, ən nanal heç də sağsağan deyil, qarğalardır. Onların dilində 300-ə yaxın çığırtı və qarıldama vardır. Onların heç də hamısının mənası açılmamışdır. Ancaq bəzi «sözlərin» mənası artıq məlumdur. Məsələn, fasiləsiz boğuq qarıldama bildirir ki, dəstə tarlada toplaşmalıdır.

İlk baxışda belə görünür ki, dünyada qarğalar hamıdan asan yaşayırlar. Haraya uçsa, harada qonsa öz yoldaşları ilə dil tapar. Ornitoloqlar deyirlər, yox. Quş dillərinin də öz dialektləri, öz şivələri vardır. Təcrübələr nəticəsində müəyyənləşdirilmişdir ki, Miçiqan gölü sahilinin qarğaları, məsələn, Florensiya şəhəri tərəfindəki qarğalarla ümumi rəyə gələ bilmirlər, şəhər qarğaları kənd qarğalarını başa düşmürlər.

Belə bir eksperiment aparılmışdır: ornitoloqlar Fransada Bretanda yaşayan qarğaların həyəcan siqnallarını maqnitofon lentinə yazmışlar. Yazı Amerika qitəsində bir neçə dəfə səsləndirilmişdir. Əfsus, «amerikalılar» öz fransız həmqəbilələrinin xəbərdarlığına cavab vərməmişlər.

Əlbəttə, ən bacarıqlıları - gəzəri qarğalardır, çünki onlar yaxşı «poliqlot»durlar. Demə, "onlar bir yerdən başqa yerə uçaraq yerli «dialektləri» nisbətən tez mənimsəyirlər. Lakin gəzəri qarğaların heç də hamısı belə qabiliyyətə malik deyildir.

Quşların dili metafora deyildir, həqiqətdə mövcud olan əlaqə vasitəsidir. Məşhur ornitoloq Konrad Lorens buna əmin olmuşdur. Təxminən bir il ərzində o qazların çığırtısını, qaqqıltısını, fışıltısını - bir sözlə bütün mürəkkəb qaz fonetikasını öyrənmiş və... hətta özü quş dilini mənimsəmişdir. Qazlar professorun qaqqıltısına cavab vermiş, onun əmrlərini yerinə yetirmiş, sahilə çıxmış, yaxud çəməndə otlamağa getmiş, hamısı «birlikdə suya tullanmışlar.

Alimlər mühüm kəşf etmişlər. Onlar öz tədqiqatlarında belə nəticəyə gəlmişlər ki, heyvanlar aləminin "bütün nümayəndələri doğulan kimi «danışmağı» bacarırlar. Yumurtadan yeni çıxan quş balası artıq öz dilində danışa bilir. O bunu çoxlu digər instinkt və adətləri ilə birlikdə əcdadlarından irsən almışdır. Ancaq əksinə olaraq insan «balası» isə öz valideynlərinin dilini uzun müddət və inadla öyrənməli olur.

Onu da qeyd edək ki, quşlara özgə dilləri öyrənmək müyəssər olmur. Ördək balası bayquş balası yaxud durna balası ilə heç vaxt danışa bilməz. Onlar hətta öz yaxın qohumlarının dillərini mənimsəyə bilməzlər: tutaq ki, ,ağ tetra quşu, çil tetra quşunu başa düşmür. «Dilin» sədd olmasının parlaq nümunəsi ağ və qara leyləklərin həyatında müşahidə edilmişdir. Bəzi zoologiya bağlarında qara leylək ağ leyləyi sevməyə başlayır. Lakin bu sevgi yalnız yuva qurmaqla məhdudlaşır».

İlk baxışda elə görünə bilər ki, eyni cinsə aid olan heyvan növü eyni səs çıxarır: bütün qarğalar eyni cür qarıldayır, bütün itlər eyni cür hürür, bütün qurbağalar eyni cür quruldayır. Lakin əslində elə deyildir. İnsan qulağının tuta bilmədiyi çalarları yüksək həssaslığa malik cihazlar fərqləndirir. Belə çalarları heyvanlar özləri tez hiss edirlər. Tədqiqatçılar müəyyəiləşdirmişlər ki, ayrı-ayrı ərazilərdə yaşayan eyni növlü heyvanlar bir-birini «başa düşmürlər»: məsələn, Kaliforniya qarğaları Texas qarğalarının «dilini» bilmirlər. Belə bir səhv fikrə tez-tez təsadüf edirik ki, bir heyvan növünə aid olan fərd başqa heyvan «dilində» danışa bilməz. Deyns Barrinqton üç körpə kətanquşu balasını götürüb çəmən, çöl və meşə torağayının yanına qoyur. Hər körpə öz yeni valideyni kimi oxuyur. Onları öz nəslinə qaytardıqda öz xüsusi kətan quşu nəğməsinə qayıtmırlar, tərbiyə aldıqları torağaylar kimi oxuyurlar. Belə çıxır ki, heyvanların dili də ictimai hadisədir. İnsanlarda olduğu kimi, heyvanlarda da «dil» irsən keçiImir, əhatədə qazanılır. Bu fikrin nə dərəcədə doğru olduğunu söyləmək çətindir; onu təsdiq yaxud rədd etmək üçün çoxlu təcrübə aparmaq lazımdır. Lakin bu, inkaredilməz həqiqətdir ki, heyvanlar «ünsiyyət saxlamaq üçün müxtəlif çalara malik səs siqnallarından istifadə edirlər. Bu baxımdan inkişaf pilləsinə, təkamül dərəcəsinə görə insana daha yaxın olan meymunlar üzərində aparılan təcrübələr müsbət nəticələr verir. Aparılan təcrübələrdən belə nəticəyə gəlmək olur ki, şimpanze müxtəlif çalara malik olan 25-dən 32-dək (N. N. Ladıkina-Kotsa görə 25, Amerika tədqiqatçısı Lernerə görə 32) səs çıxara bilir. Məqsəddən asılı olaraq, səsin çaları dəyişir. Daha bir məsələni də qeyd etmək lazımdır: Şimpanze it hürüşünü əla təqlid etdiyi halda bütün cəhdlərə baxmayaraq insan səsini təqlid edə bilmir.

Məlumat üçün qeyd edirik ki, quş və heyvan «dillərini» insan dilinə tərcümə etmək təşəbbüsləri də göstərilmişdir. Məsələn, 1800-cü ildə Almaniyada Vetzel it, pişik, toyuq və s. dillərinin lüğətciklərini tərtib edir. O belə güman edirdi ki, heyvanlar insan dilini başa düşür. 1807-ci ildə Düpon bülbülün nəğməsini fransız dilinə tərcümə edir və qarğa «dilinin» lüğətini tərtib edir.

Adətən, biz heyvan səslərini təqlid edərkən onu insan səsləri yaxud onların yazılı, qrafik şəkli olan hərflər kimi təsəvvür edirik. Əslində bu illüziyadır, çünki ən ibtidai heyvandan başlamış insanadək təkamülün ən yüksək pilləsində duran müasir insanabənzər meymunlaradək bütün canlıların çıxardığı səslər üzvlərinə bölünmür, sinkretik vəhdət təşkil edir: qarğa q-a-r-r, it h-a-m və s. səsləri çıxarır. İnsan dili başqa canlıların «dilindən» bir də onunla fərqlənir ki, o, aydın, üzvlərinə bölünən nitqdir. İnsanın meymundan ayrılmasında ağız orqanlarının tədricən bir-birinin ardınca aydın səslər tələffüz etməsini Enqels xüsusilə

qeyd edir.

Güman ki, avstralopitekdən başlayaraq insanın ulu əcdadları-pitekantrop (meymun-insan) və paleantroplar (qədim insanlar) da təkamül pilləsinin insandan sonra ən yüksək pilləsində duran meymunlar kimi aydın şəkildə üzvlərinə bölünməyən səslərlə ünsiyyət saxlamışlar; yalnız neantrop (yeni insan) aydın nitqə malik olmuşdur. Buna görə də, adətən, insanın yaranması və təkamülü tarixi hərəsi bir sıra kiçik mərhələlərə ayrılan üç böyük dövrə bölünür: homo aljaljus (lal, dilsiz insan) dövrü, homo stupidus (axmaq insan) dövrü və homo sapiens (ağıllı insan) dövrü. Məhz bu son dövrdə insan aydın nitqə yiyələnmişdir.

Sübut edilmişdir ki, meymunun çıxardığı səslər fikir ifadə etmir, hiss və arzu bildirir, lakin mənasız çığırtıdan fərqlənir. Güman ki, ilk insan, daha doğrusu, əmələ gəlməkdə olan insanın səsləri də meymun səsləri kimi nəinki üzvlərinə bölünməmiş, həm də fikir ifadə etməmiş, təkcə hiss və arzu bildirmişdir. Lakin əmək fəaliyyətinin genişlənməsi, xüsusən ovçuluğun meydana gəlməsi insanın ulu əcdadının daha da ictimailəşməsinə, sosial varlığa çevrilməsinə səbəb oldu. ...Əməyin inkişafı cəmiyyət üzvlərinin zərurət üzündən daha sıx birləşməsinə kömək etmişdir, çünki onun sayəsində qarşılıqlı kömək, birgə fəaliyyət halları daha tez-tez baş verməyə başlamış və hər bir ayrıca üzv bu birgə fəaliyyətin faydalı olduğunu daha aydın dərk etməyə başlamışdır. Qısa desək, əmələ gələn insanlar o yerə çatmışlar ki, onlarda bir-birinə *bir şey söyləmək tələbatı* meydana gəlmişdir . Lakin bu tələbatın necə ödəndiyi, «meymunun inkişaf etməmiş olan xirtdəyinin yavaş-yavaş, lakin dönmədən, modulyasiya yolu ilə, getdikcə daha artıq inkişaf edən modulyasiyaya keçmək üçün necə dəyişməsi, ağız orqanlarının isə tədricən bir-birinin ardınca aydın səslər tələffüz etməyi necə öyrənməsi» elmi ədəbiyyatda göstərilmir. Bu məsələdə də fərziyyəsiz keçinmək mümkün deyildir. Güman ki, üzvlərinə bölünməyən səslər mərhələsi ilə üzvlərinə bölünən aydın nitq mərhələsi arasında keçid pilləsi mövcud olmuş və əməklə, dik yerişlə yanaşı bu aralıq, keçid pilləsi aydın nitqin yaranmasına səbəb olmuşdur. Şərti olaraq, bu pilləni işarə pilləsi adlandıraq. Meymunlar üzərində uzun müddət və nə qədər ciddi-cəhdlə təcrübə aparılmışsa da, onun işarələrdən, xüsusən əl işarələrindən, jestlərdən istifadə etməsinə nail olmamışlar: meymun yalnız başı ilə təsdiq və inkar (*hə, yox*) işarələrini qavramışdır, əllə ifadə edilən bu, o, gəl, get və s. jestlər meymun beyni tərəfindən qavranılmamışdır. Çox zaman elmi ədəbiyyatda əl hərəkəti dili ideyası kəskin tənqid edilir. Lakin bu ideyanın rasional toxumunu rədd etmək düzgün deyildir; bütövlükdə əl hərəkəti dili ideyası rədd edilsə də onun rasional toxumu qəbul edilməlidir. Güman etmək olar ki, əmək fəaliyyətinin xeyli genişlənməsi nəticəsində nə isə söyləmək, təkcə arzu, hiss və həyəcanı ifadə üçün yox, həm də nə isə bir fikir söyləmək tələbatı ilə əlaqədar olaraq əmələ gəlməkdə olan insan hələ üzvlənməyən ixtiyari səslərlə (əlbəttə, meymunlarda olduğu kimi, yaranmaqda olan insanlarda da üzvlərinə bölünməyən ayrı-ayrı səslər müəyyən mənalarla bağlı idi) yanaşı özünün meymunabənzər əcdadlarında olmayan müəyyən işarə üçün işlədilən əl hərəkətlərindən, jestlərdən də istifadə etməyə başlayır. İlk jestlər *bu, o, bəli, xeyir, hə, yox, gəl, get. ver, lazım, deyil, al, mən, sən, o, bu mənəm, bu odur, hədələmək, qorxutmaq, çağırmaq, qovmaq, yalvarmaq* və s. Mənalari ifadə edən hərəkətlər

olmuşdur. Sonralar bu hərəkətlər və üzvlərinə bölünməyən səslər əsasında ilk üzvlərin, yeni tərkib səslərinə bölünən sözlər yaranmışdır. Biz bu prosesin necə getdiyini, ilk homo sapiens-in ilk üzvlərinə bölünən sözü necə tələffüz etdiyini, bu sözün hansı söz olduğunu söyləyə bilmərik, bunu söyləmək mümkün deyil, lakin dilin yaranması prosesinin məhz bu cür getdiyinə əminik.

Əl hərəkətləri ilə dilin (nitqin) sıx əlaqədar olduğunu psikologiya elminin son nailiyyətləri də sübut edir. Psikoloqlar müəyyənləşdirmişlər ki, əllərin hərəkətini tənzim (idarə) edən baş beyin mərkəzi nitq mərkəzi ilə yanaşıdır. Bu faktın özü də nitqlə əl hərəkətinin, jestlərin sıx əlaqədar olduğunu göstərir.

Meymunun insana çevrilməsi (deməli, dilin də yaranması) prosesi dialektik və tarixi materializm fəlsəfəsi metodunda yazılmış bir sıra əsərlərdə dahiyanə surətdə şərh edilmiş və sonra gələn müəlliflər tərəfindən bu və ya digər şəkildə təkrar edilmişdir. Enqelsin şərhçiləri məsələni belə qələmə verirlər ki, guya Enqels belə bir fikir söyləyir ki, insanın ulu əcdadı əməklə məşqul olan kimi dil yaranmışdır. Lakin Enqels öz əsərində buna oxşar heç bir fikir irəli sürməmişdir. Enqels dilə əməyin son nəticəsi, əməyə isə cəmiyyətin və dilin yaranma mənbəyi, səbəbi kimi baxmışdır. Enqels ilk insanabənzər meymunun əməklə məşğul olması və dilə malik insanın (homo sapiens) yarandığı vaxtdan nə qədər keçdiyini söyləməsə də, bu iki hadisə, yəni əməklə məşğulolma və dilin yaranması arasında yüz min illər keçmişdir.

İnsan dilinin üzvlənməyən (aydın olmayan) səslər və işarələrdən aydın başa düşülən və sözləri tərkib səslərinə üzvlənən aydın nitqədək inkişafını yalnız belə təsəvvür etmək olar.

## *Nitq və Fəaliyyət*

Nitqin insan həyatında və fəaliyyətindəki əvəzsiz rolu bəzən, xüsusən burjua dilçiliyində onun funksiyasının şişirdilməsinə səbəb olur. XX əsrin ortalarında dilin insanın ictimai həyatındakı rolunun belə şişirdilməsinə, Sənir-Uorf fərziyyəsnidə rast gəlmək olar. Dərinliyinə varmasaq, bu fərziyyəyə görə, dil insanın ətraf mühiti qavramasını, təfəkkür tərzini və ictimai əxlaqını, özünü idarəetmə qaydalarını müəyyənləşdirir; insan yalnız onun dilinin müəyyənləşdirdiyi şeyləri qavraya və dərk edə bilər. Bu fikir dilçilər və filosoflar tərəfindən kəskin tənqid edilsə də hələlik kimsə onu əsaslı şəkildə təkzib edə bilməmişdir. Hətta son illərdə sovet dilçiliyində bu fikrə rəğbət də hiss edilir. Məsələn, V. A. Zvegintsev yazır: «Dilçilər, əlbəttə, hətta özləri üçün bir qədər gözlənilməz şəkildə aydınlaşdırdılar ki, onlar faktik olaraq hələlik belə bir şəraitdən lazımı nəticələr çıxarmamışlar ki, insan dilin məzmunlu (yaxud mənalı) aləminə daxil olmuş halda işləyir, hərəkət edir, düşünür, yaradır, yaşayır; dil göstərilən aspektində, mahiyyətcə desək, insanın özünün yaşaması üçün qidalandırıcı mühitdir və dil hər halda insanın şüurlu və şüursuz davranışını əmələ gətirən bütün psiki parametrlərin vacib iştirakçısıdır»[1].

Sözün insan davranışına, əxlaqına, hətta insanda gedən fizioloji proseslərə təsir gücü artıq hamı tərəfindən qəbul edilir. K- İ. Platonovun 2 klassik təcrübələri sübut etmişdir ki, hipnozda söz qanın tərkibinin dəyişməsinə və orqanizmdə digər biokimyəvi dəyişikliklərin baş verməsinə təsir göstərə bilər. Şərti reflektor münasibətləri müəyyənləşdirmək vasitəsilə sözlə hər hansı fizioloji prosesə təkcə bilavasitə verballaşan (sözlə ifadə edilən) proseslərə deyil, habelə bilavasitə öz adları ilə adlandırılmayan, dərk edilməyən proseslərə də təsir göstərmək mümkündür. Prinsipcə söz insan orqanizminin, demək olar ki, bütün reaksiyaları üzərində hakimdir. Düzdür, çox vaxt biz bunu müşahidə edə bilmirik, lakin bu belədir. N. İ. Çuprikova yazır ki, insanın beyin fəaliyyətinin qəti surətdə bütün sahələri ikinci siqnal sisteminin (yəni nitqin) idarə-edici impulslarının təsiri altındadır. Müasir nevropsikologiya elmi artıq sübut etmişdir ki, ikinci siqnal sistemi insanın ali əsəb sistsminin bütün sahələrinin fəaliyyətinə nəzarət edir və birinci siqnal sisteminin hər hansı hərəkt və vegetativ refleksini əylətmə (tormozlama) vasitəsidir. N. İ. Çuprikova yazır ki, ikinci siqnal sistemi müvəqqəti əlaqələrin yaranmasına mane olmaq qabiliyyətinə, beyin qabığının qapanma proseslərini əylətmə qabiliyyətinə malikdir.

İnsanın fəaliyyətində söz gözəgörünməz, hissedilməz şəkildə həmişə əylətmə, qadağanetmə işi görür. Anomal uşaqlarla aparılan eksperimentin nəticələri göstərir ki, söz sistemi vasitəsilə ilkin (birinci) siqnal sistemi reaksiyalarına əyləndirici təsir göstərmək mümkündür. O, stimul və reaksiyanın sadə əlaqəsi əsasında adi qapanmanın qarşısını alır. Sözün əylənc funksiyası ilk uşaqlıqda özünü daha qabarıq şəkildə göstərir, adam yaşa dolduqca hiss edilmir (daha doğrusu, «gizlənir», özünü qabarıq göstərmir) və yalnız nevrodinamikanın pozulması hallarında müşahidə edilir.

İ. P. Pavlovun təcrübələrindən bizə məlumdur ki, ikinci siqnal sistemi hər şeydən əvvəl birinci siqnal sisteminə həmişə mənfi induksiya göstərir. Sözün, nitqin, ümumiyyətlə, ikinci siqnal sistemi impulslarının ən əsas funksiyası əylətmədirsə, onda bütövlükdə ikinci siqnal sistemi beyin aparatının fəaliyyətini başa düşmək imkanı yaradır. Təkcə aşağı alın qırışlarında, gicgah hissəsində və gicgahın əmək və ənsə nahiyələri ilə birləşdiyi yerdə yerləşən nitq ünsiyyətinin sensor cəhətini (qavrama) və motor (hərəkət) aktlarını idarə edən beyin qabığı hissələrini deyil, habelə xüsusən müasir arxitektonik şəkildə beynin alın hissəsini məhz bu morfo-funksional aparata aid etmək lazımdır. B. F. Porşnev yazır: «Bu əsas həlqə olmadan yol və sistemlərin çox hissəsini əylədərək və cüzi hissəsini fəallaşdıraraq nitq mərkəzi bütün beynin, bütün əsəb sisteminin fəaliyyətini idarə edə bilməzdi»1. İnsan beyninin nitq mərkəzi yerləşən alın hissəsi mürəkkəb məqsədəyönlü aktların icrasını idarə edir. Belə aktlar verbal və mücərrəd anlayışların işlədilməsi ilə əlaqədar olan müəyyən uzunmüddətli məqsədlərin mühafizəsini tələb edir. Beynin alın hissəsi bu funksiyaları həyata keçirir:

1) birinci siqnal reflekslərini, ətraf mühitə bilavasitə-reaksiya verməyən əyləndirir;

2) nitqi davranışa çevirir, bilavasitə reaksiya verilməsindən azad edilmiş davranışı tapşırığa. komandaya yaxud fikrə - başqa sözlə desək, nitq başlanğıcına, planına və proqramına tabe edir.

Xüsusi nitq zonaları ilə fəaliyyətdə olan beynin bütün şöbələri arasındakı transmissiya əsas etibarilə beynin alın bölməsində cəmlənmişdir. Beyin bölməsinin kütlə halında zədələnməsi (şiş olması, yaralanması, qan dövranı və s.) zamanı insan nitq qabiliyyətini itirmir, lakin onun davranışı eksperimentorun sözlə verdiyi təlimata tabe olmur.

N. İ. Çuprikova belə bir fərziyyə irəli sürür ki, beyin bölmələri sözün həqiqi mənasında nitq zonaları olmasa da hər halda insanın ali əsəb fəaliyyətində ikinci siqnal sisteminin idarəedici funksiyasının həyata keçirilməsi ilə əlaqəsi olan nahiyələrdir.

«Beləliklə, güman etmək olar ki, insan beyninin spesifik fəaliyyəti üç mərtəbədən təşkil edilmişdir:

1) sensor və motor nitq zonaları yaxud mərkəzləri;

2) alın bölmələri, xüxüsən alınönü, nrefrontal formalaşmalar və xüsusi olaraq Homo sapiyens-ə məxsus olan gicgah-əmgək-ənsə nahiyəsində yerləşən zonalar;

3) beynin digər bölmələri - bunlar insanda və ali heyvanlarda eynicinslidir. İkinci mərtəbə nitq işarələrini istiqamətləndirici məqsədə və onun idarəsinin həyata keçirilməsinə çevirir. Bununla da sosial olan fərdin daxilinə daxil olur, insan mühitinə ünvanlandırılan işarələr onun fəaliyyətinin daxili qanunları olur» 4.

İnsan əməyini başqa canlıların fəaliyyətindən fərqləndirən də məhz budur - beynin sensor və motor nitq mərkəzlərinin, habelə alın və gicgah-əmgək-ənsə nahiyələrinın insanın bütün fəaliyyətini idarə etməsidir.

Hazırda paleoantropologiya elminə mötəbər surətdə məlumdur ki, troqloditid ailəsinin bütün üzvlərinin, hətta onların ən yüksək inkişaf etmişi olan paleoantropların (neandertal adamının) beyininin arxitektonikasında baş beyin qabığının bütün yuxarı prefrontal formalaşmaldarı, habelə giçgah və əmgək nahiyələrinin ikinci siqnal idarə və fəaliyyəti, qavrama və ümumiyyətlə insan orqanizminin bütün funksiyalarını həyata keçirən zonaları olmamışdır. Bütün bunlar yalnız Homo sapiens-ə məxsusdur və onun digər ali məməlilərdən bir sinif kimi fərqlənib ayrılmasında əsas rol oynamışdır. Əvvəllər iki səbəb belə bir nəticəyə gəlməyə mane olurdu. Əvvələn, inkişafın dərəcəsini beynin çəkisinin bədənin çəkisinə nisbəti ilə ölçürdülər. Bu fikir xüsusən sonralar beyin qırışları sayının və dərinliyinin beynin daha yüksək səviyyədə

təkamülü ilə heç bir əlaqəsi olmadığı aydın olduqda daha da intişar tapdı. Qominidlərin inkişafı xəttini beynin həcmi (deməli, çəkisi) əlaməti əsasında qurmağa çalışırdılar. Lakin məlum oldu ki, neandertal adamının baş beyninin həcmi Homo sapiensin baş beyninin həcmindən nəinki kiçik deyil, hətta orta hesabla (bəzi növlərdə) bir az böyükdür. "insan beyni fəaliyyətinin tədqiqi göstərdi ki, təfəkkürə digər ali funksiyalarda beyni təşkil edən əsəb hüceyrələri, sahələri və strukturunun kiçik bir hissəsi iştirak edir. Hətta belə bir məsələ qaldırılırdı ki, belə böyük beyin insana lazımdırmı, beynin bu qədər böyüklüyü atavizm deyilmi? Getdikcə elm aləmində belə bir fikir yarandı ki, heyvanlar insana keçiddə (meymunun insana çevrilməsində) baş beynin həcminin də, çəkisinin də heç bir əhəmiyyəti yoxdur.

İkincisi, bir halda ki, ikinci siqnal sistemi təkcə mikroyaranmalar surətində deyil, habelə alın bölməsinin qabaq hissəsi kimi böyük formalaşmalar şəklində beyin substratına malikdir, onda onun, məsələn, neandertal adamında mövcudluğunu yaxud yoxluğunu endokranlar əsasında asan müəyyənləşdirmək olar. Buna görə də ikinci siqnal sisteminin alın bölmələrinin spesifik funksiyaları ilə qırılmaz əlaqəsinin müəyyənləşdirilməsinin insanın mənşəyi haqqındakı elm üçün fundamental əhəmiyyəti vardır. Əgər beynin alın bölməsinin yuxarı qabaq formalaşması mövcud deyilsə, onda nitq mövcud deyil, deməli, insan özü də mövcud deyildir.

V. İ. Koçetkovanın gərgin və məhsuldar əməyinin nəticəsində indi bizdə insanın əcdadının, demək olar ki, bütün növlərinin - avstralopiteklərin, Homo habilsərin, pitekantropların, sinantropların, müxtəlif paleoantropların, kromanyon adamlarının baş beyinlərinin mulyajı (qipsdən hazırlanmış beyin modeli) vardır. Bunlar beynin xarici formalarını əks etdirsə də primatların və insanın beyin anatomiyası haqqındakı müasir məlumatlar imkan verir ki, xarici forma əsasında daxili strukturu və fəaliyyəti bərpa etməyə doğru gedək. Bu iş bir də ona görə asanlaşır ki, insanın mənşəyi probleminin həllində bizi baş beynin aşağı və-orta hissələrinin yox, beyin qabığının təkamülü maraqlandırır. Antropomorf meymunlardan başlamış ta Homo saiyensə qədər inkişafda böyük beyin yarımkürələrinin bütün nahiyələrinin taleyi izlənilmişdir. Orijinal kəmiyyət və qrafik metodlar tətbiq edilmişdir. Nəticələr dəqiqləşdirilməsə də insanın mənşəyi probleminin həllində maraqlı olan suallara cavab almaq olar.

Çox vaxt insanın yaranmasını onun ulu əcdadının əmək alətlərindən istifadə etməsi ilə əlaqələndirirlər. Dunyanın bir sıra atropoloqları Homo habilis-i (prezincantropu) ən qədim insan hesab edirlər, çünki o, ən qədim geoloji laylarda, lakin süni çay daşı alətləri ilə tapılırdı. V. İ. Koçetkovanın tədqiqatları göstərdi ki, prezincantropun beyni daha sonra yaşamış və süni əmək alətlərindən istifadə etməmiş avstralopiteklərin beynindən heç bir şeylə fərqlənməmişdir. Öz növbəsində avstralopiteklərin beyni də əsas əlamətlərinə görə, məsələn, şimpanze tipli antropoidlərin beynindən fərqlənmir və Homo sapiyens-in beyni üçün spesifik olan heç bir şeyə malik deyildir. Deməli, insanın əsas fərqi-süni daş alətlər hazırlaya bilməsi - meymun beyni ilə bir araya sığır.

Növbəti təkamül həlqəsində, arxeoantroplarda beyin nitq fəaliyyəti üçün, deməli, əmək fəaliyyəti üçün spesifik olan hissələrə malik deyildir, halbuki onun beyninin bəzi hissələri ali meymunlar və avstralopiteklərin-dəkinə nisbətən böyümüşdür. Paleoantroplarda beyin quruluşunun dəyişməsi xeyli irəli gedir, lakin onlarda da insanın nitqini tənzimləyən və fəaliyyətini, xüsusən əmək fəaliyyətini proqramlaşdıran beynin yuxarı alın bölməsinin inkişafı çatmır. Paleoantropların beyninin görmə-iybilmə və ənsə hissələri intensiv inkişaf edir; bu hissələr sonralar Homo sapiyens-də yenidən o qədər azalır ki, insan əcdadlarının bütün təkamül ərzində qazandıqlarını itirir. Buradan belə bir nəticə çıxarmaq olar: nitq və insan əməyi meymun beyni (hətta antropomorf beyni) bazasında yarana bilməzdi. Troqloditid ailəsinin təkamülü dövründə, xüsusən paleoantropların sonunda baş beynin ümumi inkişafı və ali əsəb sistemi fəaliyyətinin ixtisaslaşması təbiətdə yeni varlığın - insanın yaranması üçün bioloji bünövrə oldu.

Beləliklə, lap əvvəldən nitq insan fəaliyyəti ilə, xüsusən insanın əmək fəaliyyəti ilə sıx və qırılmaz əlaqədə olmuş, birinin inkişafı digərinin təkamülünə təkan vermişdir.

## *Əmək, Cəmiyyət və Dil*

Əvvəldə qeyd etdiyimiz geniş yayılmış fikrə əsasən insanı da, dili də əmək yaratmışdır, həm də dil təcrid edilmiş fərd tərəfindən deyil, cəmiyyətdə ünsiyyət ehtiyacından, ünsiyyət prosesində yaranmışdır. Bu nöqteyi-nəzərdən əmək, cəmiyyət və dil arasındakı münasibətləri nəzərdən keçirmək zəruridir. Həm genealoji, həm də ontoloji baxımdan ilkin gələni əməkdir. Əmək cəmiyyətin də, dilin də yaradıcısıdır.

Əmək nədir? İnsan əməyinin təhlilinə həsr edilmiş əsərlərdə irəli sürülən fikirləri yekunlaşdırsaq, insan əməyinin nə olduğu haqqında belə demək olar: «Əmək hər şeydən əvvəl insanla təbiət arasında baş verən bir prosesdir, insanın öz fəaliyyəti sayəsində özü ilə təbiət arasındakı maddələr mübadiləsində vasitəçi olduğu, bu mübadiləni tənzim etdiyi və onu nəzarət altında saxladığı bir prosesdir. İnsan özü təbiət maddəsinə bir təbiət qüvvəsi kimi qarşı durur.

İnsan təbiət maddəsini öz yaşayışına yararlı olan bir formada mənimsəmək üçün öz bədəninə mənsub olan təbii qüvvələri: əl və ayaqlarını, *başını* (kursiv mənimdir- Ə. R.) və barmaqlarını hərəkətə gətirir. İnsan bu hərəkət vasitəsilə xarici təbiətə təsir etməklə və onu dəyişdirməklə bərabər öz təbiətini də dəyişdirir. O öz təbiətində mürgüləməkdə olan qüvvələri inkişaf etdirir və bu qüvvələrin fəaliyyətini öz hakimiyyətinə tabe edir. Biz burada əməyin ilk heyvanabənzər instinktiv formalarını nəzərdən keçirməyəcəyik. Cəmiyyətin, əmtəə bazarında fəhlənin öz iş qüvvəsinin satıcısı kimi meydana çıxdığı halı ilə, ibtidai zamanın dərinliklərinə gedib çatdığı ilkin halı - insan əməyinin öz primitiv, instinktiv formasından hələ azad olmadığı halı arasında çox böyük məsafə vardır. Biz əməyi ancaq insana məxsus olduğu formada nəzərdə tuturuq.

Hörümcək toxucunun əməliyyatını xatırladan bir əməliyyat icra edir, bal arısı da mumdan şan qayırması ilə bəzi memar adamları utandırır. Lakin ən pis memar da ən yaxşı bal arısından lap əvvəldən bununla fərqlənir ki, memar hələ mumdan şan qayırmazdan əvvəl bunu öz beynində qayırıb hazırlamış olur. Əmək prosesinin sonunda alınan nəticə artıq bu prosesin əvvəlində insanın təsəvvüründə, yəni ideal surətdə mövcud olur. İnsan nəinki təbiətin verdiyi şeyin formasını dəyişdirir; təbiətin verdiyi şeydə o öz şüurlu məqsədini də həyata keçirir, bu məqsəd bir qanun olaraq insan fəaliyyətinin üsulunu və xarakterini müəyyən edir və insan öz iradəsini bu məqsədə tabe etməli olur». Deməli, əmək prosesinin sadə momentləri bunlardır: müəyyən məqsəd güdən fəaliyyət və ya əməyin özü, əmək cismi və əmək vasitələri. Fəlsəfə elmində, əməyin tərkib hissələri ətraflı şəkildə təhlil edilir, aydın surətdə izah edilir ki, «əmək vasitələri» heç də əmək alətlərinə bərabər deyildir; elm bu ifadəyə daha geniş məna verir: «Əmək vasitəsi elə bir şeydir və şeylər kompleksidir ki, insan bunları özü ilə əmək cismi arasında qoyur və bunlar ona öz təsirini həmin cismə keçirən bir amil xidməti görür».

Adətən, əmək fəaliyyətindən danışarkən fərd- alət - mühit üçlüyünü əsas götürürlər, həm də insanın yaranmasında əmək alətinə üstünlük verib göstərirlər ki, meymun əli ilk əmək alətini (adətən, daş alət nəzərdə tutulur) yaratdıqda ilk insan meydana çıxmışdır. Lakin hər şey daşdan yaxud ağacdan əmək aləti kimi istifadə etməkdən asılı olsa idi, ilk insanın meydana çıxması asan olardı. Digər tərəfdən, insanın meydana çıxmasını sadəcə əmək aləti ilə bağlamaq, bir növ, robinzonçuluğa bənzəyir: ayrılıqda götürülmüş bir fərd, Robinzon kimi, özü üçün alət düzəldir və ondan istifadə edir. Dialektik və materialist fəlsəfəyə görə, insan öz təbiətinə görə ictimai heyvandır. Deməli, insanın əmək fəaliyyətinin əsasında insanların bir-biri ilə ünsiyyəti, ictimai başlanğıc durur. Bu, əsl ictimai faktordur - insanın əmək fəaliyyəti məqsədə yönəldilmiş hadisədir. Əmək prosesinin əsas məqsədi insanın ictimai mühitə mənsubluğunun və onun ictimai mühitlə kommunikasiyasının məhsuludur.

F. Enqels meymunun insana çevrilməsi prosesində əməyin rolundan danışarkən əmək prosesi anlayışının iki aspektini nəzərdə tutur. O, bir tərəfdən, əməyə meymunu insana çevirən faktor kimi baxır; deməli, onun fikrincə, əmək bu mənada insanlara yox, meymunların (ali insanabənzər primatların) bir hissəsinə xas xüsusiyyətdir və yüz min illər boyu onların insana çevrilməsini hazırlamışdır. Lakin, digər tərəfdən, Enqels insanın bütün tarixi boyu əməyin onu digər heyvanlardan fərqləndirən əlamət olmasından danışarkən əməyin şüurlu olmasını, yəni Marksın sözləri ilə desək, əmək prosesinin sonunda alınacaq nəticənin artıq bu prosesin əvvəlində insanın təsəvvüründə hazır olmasını nəzərdə tutur.

Dialektik fəlsəfənin müddəalarından çıxış edərək əməyin iki formasını göstərmək olar; instintiv «əmək» və şüurlu əmək. Məşhur bir əsərdə əməyin bu iki forması haqqında belə yazılır: «Biz burada əməyin ilk heyvanabənzər instinktiv formalarını nəzərdən keçirməyəcəyik. Cəmiyyətin, əmtəə bazarında fəhlənin öz iş qüvvəsinin satıcısı kimi meydana çıxdığı halı ilə, ibtidai zamanın dərinliklərinə gedib çatdığı halı arasında

çox böyük məsafə vardır. Biz əməyi ancaq insana məxsus olduğu formada nəzərdə tuturuq» Deməli, əmək özünün instinktiv formasında yalnız insana xas xüsusiyyət, insanın ulu əcdadını heyvandan ayıran prinsipial fərq deyildir. Buna görə də onu əməyin heyvanabənzər forması adlandırırlar. Bu instinktiv, heyvanabənzər əmək şüurlu, məqsədəyönlü əməkdən əsaslı surətdə fərqlənir. Məhz bu nöqtədə insanın yaranmasının materialist izahı ilə idealist izahı arasındakı fərq özünü göstərir: idealist baxışa görə, əvvəlcə insanı heyvandan fərqləndirən şüur, təfəkkür yaranır, sonra fikir əməyə, əmək alətinə tətbiq edilir. İnstinktiv əməyi nəzərdə tutaraq göstərmək lazımdır ki, bu hal, yəni instinktiv əməkdən şüurlu əməyə, insanabənzər meymundan insana keçid minlərlə il davam etmişdir. Deməli, məsələ iki cür qoyulur və onlardan birini qəbul etmək lazımdır. Ya insan təbiəti müşahidə edib onun bir sıra xüsusiyyətlərini kəşf edərək əvvəlcə öz təfəkküründə, sonra təfəkküründə hazırladığını materiala tətbiq etməklə əmək alətini kəşf etməkdən başlayır, ya da onun əməyi əvvəlcə instinktiv, heyvanabənzər səciyyə daşıyır və uzun müddət belə davam edir, sonra isə əməyin bu forması nəticəsində dəyişikliklərin toplanması və əməklə məşğul olan subyektin özünün tədricən dəyişməsi yeni keyfiyyətə - ikinci siqnal sisteminin, cəmiyyətin, insan idrakının, başqa sözlə desək, insanın yaranmasına gətirib çıxarır. Dialektik və tarixi materializm məsələnin ikinci şəkildə izahını qəbul edir. Beləliklə, əməyin meydana çıxmasından cəmiyyətin yaranmasınadək min illər keçmişdir. Bu müddətdə insanın tarixdən əvvəllki əcdadı əməklə məşqul olmuşdur, lakin bu əmək hələ heyvanabənzər instinktiv səciyyə daşımış, bal arısının mumdan şan qayırmasına bənzəmişdir. Meymun sürüsünün ibtidai təşkilindən insanların cəmiyyət halında birləşməsinədək keçilmiş tarixi yol çox uzun olmuşdur. Enqels yazır ki, əməyin başlanmasından ilk daşın insan əlinin köməyi ilə bıçağa çevrilməsinədək böyük, nəhəng dövr keçmişdir. Bu keçid dövründəki varlığı hələ insan adlandırmaq olmaz. Çox vaxt elmi ədəbiyyatda «instinktiv insan» adlandırılan bu ikiayaqlı, danışmayan varlıq meymunla insan arasında keçid təşkil etmişdir, yəni troqloditidlər ailəsinə mənsub heyvan olmuşdur.

İnsan şimpanze yaxud qorilla tipli meymundan əmələ gəlməmişdir, çünki inkişafın ən yüksək pilləsində duran meymunlarda belə insana xas olan xüsusiyyətlər- dik yeriş, ətli yeməyə vərdiş, ibtidai də olsa, əmək alətindən istifadə, yüksək inkişaf etmiş ali əsəb fəaliyyəti yoxdur. İnsan üçüncü dövr antromorf meymunlarından inkişaf etmiş və bir növ insanlaşmaq üçün ixtisaslaşdırılmış troqloditiddən törəmişdir. Troqloditidlər sözün əsl mənasında meymun deyildir, bir sıra morfoloji əlamətlər (məsələn, düzqamətli yeriş) və ekologiya (məsələn, ətyemə) bunları digər meymunlardan fərqləndirir. Bu əlamətlər sonralar insanı səciyyələndirən xüsusiyyətlərə daxil olsa da troqloditidləri insan adlandırmaq üçün kifayət deyildir. Bunlardan başqa bir sıra zəruri əlamətlər də troqloditidləri antromorf meymunlardan fərqləndirir. Belə ki, troqloditidlərdə fərdi ali əsəb sisteminin fəaliyyəti yüksək səviyyədə olmuşdur, onların orqanizmi şərti reflekslər yaratmağa, ətraf mühitin təsirini və hərəki reaksiyanı diferensiallaşdırmağa qabil olmuşdur.

İnsanın yaranmasında əmək alətinin rolunu artıq şişirtmək, ehkamlaşdırmaq da lazım deyildir. Çox vaxt insanın əmələ gəlməsində əmək alətinin rolundan danışarkən K. Marks və F. Enqelsə isnad edib

göstərirlər ki, onlar insanın yaranmasını əlin ilk əmək aləti yaratması ilə bağlamışlar. Düzdür, Marks və Enqels insanın yaranmasında əmək alətinin düzəldilməsi və istifadə edilməsinə böyük əhəmiyyət vermişlər. Lakin Marks tarixdən əvvəlki dövrdə əmək vasitələri arasında əsas rolu əmək alətlərinə deyil, əhliləşdirilmiş heyvanlara verir. O yazır: «Biz ən qədim insanın mağaralarında daş alətlərə və daş silaha rast gəlirik. Bəşər tarixinin ilk pillələrində emal edilmiş daş, ağac, sümük və balıqqulağı ilə yanaşı insan tərəfindən əhliləşdirilən, deməli, əmək sərf etməklə dəyişdirilən, bəslənib yetişdirilən heyvanlar da əmək vasitəsi olaraq başlıca rol oynayır». Əmək alətlərinə gəlincə, müəllif bunları mexaniki əmək vasitələri adlandıraraq əmək cisimlərini saxlamağa xidmət edən əmək vasitələrindən əhəmiyyəti hesab edir: «Əmək vasitələrinin öz içərisində mexaniki əmək vasitələri..., yalnız əmək cisimlərini saxlamağa xidmət edən əmək vasitələrindən xeyli artıq dərəcədə ictimai istehsalın müəyyən dövrünün xarakterik fərqləndirici əlamətini təşkil edir». Bu həqiqətən də belədir. Məlum olduğu kimi, bir sıra heyvanlar (məsələn, meymun, qunduz, bal arısı, hörümçək) heyvanabənzər, instinktiv əməklə məşqul olurlar. Bunlardan bəziləri (məsələn, qunduz, bal arısı) əmək alətləri kimi öz bədən üzvlərindən istifadə edirlər; meymun isə şüursuz da olsa, hətta əmək alətindən istifadə edir. Lakin indiyədək heç bir heyvan başqa bir heyvanı əhliləşdirməmişdir. Buna görə də alimlər tamamilə haqlı olaraq əmək vasitələri içərisində aparıcı rolu əhliləşdirilmiş heyvanlara verir.

Troqloditidin insana çevrilməsi problemindən bəhs edərkən daha bir məsələni aydınlaşdırmaq lazımdır. Məlum olduğu kimi, bəzi heyvanlar da əmək alətlərindən istifadə edirlər. Lakin qeyd etmək lazımdır ki, insanı heyvanlar aləmindən fərqləndirən əlamətlərdən biri də budur ki, bəşər tarixinin ilk pillələrində əmələ gəlməkdə olan ilk insan əmək aləti və silah kim emal olunmuş daşdan istifadə etmişdir, daha doğrusu əmək aləti və silah kimi istifadə etmək üçün daşı emal edib yararlı hala salmışdır.

Əməyin ilkin, instinktiv, heyvanabənzər pilləsində insandan, cəmiyyətdən, deməli, bunlarla bərabər üzvlənən aydın nitqdən söhbət belə gedə bilməz. Əməyin (instinktiv əməyin) başlanğıcından şüurlu əməyin meydana gəlməsinədək bəşəriyyət nəhəng inkişaf yolu keçmişdir. F. Enqels meymunun insana çevrilməsi prosesində əməyin rolu» adlı əsərində bu inkişafı cəmiyyətəqədərki dövr adlandırır və göstərir ki, bu dövr yüz min illər boyu davam etmişdir. Onun fikrincə, cəmiyyət yalnız insanla birlikdə yaranmışdır. Enqels meymunun insana çevrilməsi prosesinin üç pilləsini göstərir: 1) əvvəlcə ibtidai (primitiv, instinktiv, heyvanabənzər) əmək təzahür edir; 2) əməyin uzunmüddətli inkişafı nəticəsində nitq əmələ gəlir; 3) əməyin və onunla yanaşı nitqin yeni uzunmüddətli inkişafı nəticəsində cəmiyyət yaranır. Müəllifə görə, inkişafın yalnız bu üçüncü pilləsində insanın meymundan qəti surətdə ayrılması baş verir. M. P. Jakov belə fərz edir ki, cəmiyyətin yaranmasının başlanqıcı aşağı paleolit dövründən sonraya aiddir. B. F. Porşinev yazır ki, gələcək insan ünsiyyətini və insan cəmiyyətini xəbər verən prinsipcə yeni hadisələrin ilk simptomların mustyer zamanının ikinci yarısında müşahidə edilir, bioloji və ictimai qanunlar arasında hakimiyyət uğrunda mübarizə yuxarı paleolitin sonlarına doğru bəlkə də neblitə keçid dövründə bitir 5.

Dialektik və tarixi materializm, materialist fəlsəfə dilin (üzvlərinə bölünən aydın nitqin) yaranmasını, adətən, cəmiyyətin yaranması, insanların cəmiyyət halında birləşməsi ilə bağlayır (dil cəmiyyətdə yaranır, cəmiyyətdən kənarda dil mövcud deyildir). Cəmiyyətin yaranması üçün bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan üç hadisə, üç əsas sosioloji kateqoriyanın mövcudluğu zəruridir: 1) istehsal qüvvələri; 2) ictimai-istehsal münasibətləri (iqtisadi bazis) və 3) üstqurum. Yalnız bu üç amil birlikdə mövcud olduqda cəmiyyət mövcud ola bilər; bunlar ciddi səbəbiyyət əlaqəsi ilə bir-birindən asılıdır. Bu üç amilin sıx əlaqədə və qarşılıqlı asılılıqda olmasına baxmayaraq yenə də hər halda cəmiyyətin yaranmasından danışdıqda istehsal münasibətlərinin yaranması məsələsi ön plana çəkilir. Çünki təkcə istehsal münasibətləri insanları əmək prosssində birləşdirir. İstehsal münasibətlərinin meydana gəlməsi istehsal vasitələri üzərində mülkiyyətin bu və ya digər formasının yaranmasına səbəb olur. Cəmiyyətin yaranması istehsal vasitələri üzərində mülkiyyətin formaları ilə əlaqələndirilərək göstərilir ki, ...mülkiyyətin heç bir formasının mövcud olmadığı yerdə heç bir istehsal haqqında, deməli, heç bir cəmiyyət haqqında söhbət belə gedə bilməz. Bu da təbiidir ki, mülkiyyətin hətta hər hansı ibtidai forması, o cümlədən, kollektiv (ibtidai) mülkiyyət instinktiv, heyvanabənzər səciyyə daşıya bilməz, deməli, instinktiv, heyvanabəpzər əmək dövründə mülkiyyət formalarından, bu sonuncu olmadan cəmiyyətdən də danışmaq olmaz.

Şüurun, təfəkkürün, nitqin yaranması da cəmiyyətin yaranması ilə əlaqədardır. İstər şüur və təfəkkürün (məfhumlu təfəkkürün), istərsə nitqin mənbəyi fərdin təbiətə münasibətində deyil, fərdlərin bir-biri ilə münasibətlərində meydana çıxır. Göründüyü kimi, bu problem cəmiyyətin yaranmasından ayrıca götürülmüş bir problem deyil, elə həmin problemin digər üzüdür. Nitq hər şeydən əvvəl təşəkkül tapmaqda olan ictimai münasibətlərin təzahürü və vasitəsi kimi yaranır: nitq insanların bir-biri ilə münasibətində davranışlarına təsir göstərmək vasitəsi kimi meydana çıxmışdır. Məfhumun təzahür etməsi üçün təkcə fərdin münasibətinin mövcudluğu kifayət deyildir, həm də fərdlər arasında münasibətlərin mövcudluğu zəruridir. Həm də bu münasibət heyvanlar arasındakı «münasibətdən» köklü surətdə fərqlənir, çünki sözün əsl mənasında heyvanlar arasında münasibət mövcud deyildir.

Əmək, cəmiyyət və dil arasındakı münasibətləri qısaca belə xülasə etmək olar. Göründüyü kimi, əmək elə bir sehrkar qüvvə deyildir ki, insanın meymunabənzər ulu əcdadı onunla məşqul olan kimi dərhal insana çevrilir və aydın nitq qabiliyyəti qazanır. İnsanın meymunabənzər ulu əcdadının əməklə, daha dəqiq desək, instinktiv, heyvanabəizər əməklə məşğul olmasından yaranmaqda olan insanın şüurlu əməyə keçməsinədək uzun bir dövr keçmişdir ki, bu müddətdə əmək prosesində insanın ulu əcdadı həm fizioloji, həm də psikoloji baxımdan böyük inkişaf mərhələsi keçmişdir. Əmək istehsalı, istehsal cəmiyyəti yaratmışdır. Yaranmaqda olan və cəmiyyətdə birləşən insanlar əmək prosesində bir-biri ilə ünsiyyət saxlamağa ehtiyac hiss etmişlər. Dil də bu ehtiyacı təmin etmək, ödəmək üçün yaranmışdır.

# *Sözlər və Şeylər*

«Hər cür sərvətin mənbəyi olan əmək» həm də cəmiyyətin və dilin yaradıçısıdır. Cəmiyyəti dilsiz, dili -cəmiyyətsiz təsəvvür etmək mümkün deyildir. Belə ki, ən azı iki adam bir-biri ilə ünsiyyət saxlayırsa, deməli, artıq, ibtidai də olsa, cəmiyyətin rüşeymi mövcuddur, lakin eyni zamanda həmin bu iki adamın birləşməsi, ünsiyyət saxlaması üçün müəyyən bir ünsiyyət vasitəsi lazımdır (ünsiyyət vasitəsi olmadan onların birləşməsi qeyri-mümkündür) - belə ünsiyyət vasitəsi dildir, daha doğrusu, aydın, üzvlərinə bölünən səsli nitqdir.

Materializm aydın, üzvlərinə bölünən səsli dilin (nitqin) birdən-birə yaranmasını qəbul etmir, çünki bu yaranma, ən azı, möcüzə olardı. Lakin indiyədək belə bir dilin yaranma prosesini (ümumiyyətlə əmələ gəlməsini yox, prosesin özünü!) izah edən nəzəriyyə yaxud fərziyyə yaradılmamışdır. Vaxtilə rus dilçisi N. Y. Marr ilk səsli dilin yaranmasından danışarkən göstərirdi ki, belə dil daxilən diffuz olan dörd səs kompleksindən ibarət olmuşdur. Rus filosofu B. F. Porşnev yazır ki, ilk səsli dil iki müxtəlif səs kompleksindən ibarət olmuşdur: hər səs kompleksi digərinə münasibətdə əylənc vəzifəsini ifadə etmişdir.

Dilçiliyin paleolinqvistika sahəsi hələlik bu problemi həll edə biləcək dərəcədə inkişaf etməmişdir. Buna görə də ilk insan dilinin necə diffuz səsdən ibarət olduğunu söyləyə bilmərik; bəlkə iki, bəlkə dörd, bəlkə də çox diffuz səs ilk insan dilini təşkil etmişdir. N. N. Ladigina-Kotsun təcrübələri göstərir ki, meymunlar, məsələn, şimpanze 25 diffuz səs çıxara bilir. Məsələ ilk insan dilində diffuz səslərin sayında deyil, əsas məsələ budur ki, ilk insan dili indi başa düşdüyümüz mənada aydın, üzvlərinə bölünən səslər-sözlər şəklində mövcud ola bilməzdi, yarana bilməzdi - bu cür sıçrayışlı inkişaf dialektik materializmin bütün qanunauyğunluqlarına ziddir, ilk dil mütləq diffuz səslərdən ibarət olmalı idi. Buna görə də N. Y. Marrın vaxtilə marksizmə zidd hesab edilən dörd ünsür nəzəriyyəsinə bir də qayıtmaq və onun rasional toxumundan istifadə etmək lazımdır.

Məhdud miqdarda diffuz səslərlə arzu, istək, qadağan, sevinc, qorxu ifadə etmək olar, lakin ünsiyyət saxlamaq olmaz. Güman ki, ilk insan dilində ünsiyyət üçün diffuz səslərlə yanaşı və onlarla birlikdə əl hərəkəti, jest və mimikadan, habelə əşyalardan da (imkan dairəsində) istifadə edilmişdir. Məlum olduğu kimi, psikoloji və fəlsəfi baxımdan ikinci siqnal sistemi inkişafının ilkin mərhələlərində qavrama, təfəkkür, qarşılıqlı informasiya problemləri ilə əlaqədə olmamışdır. Təbii olaraq belə bir sual meydana çıxır: bəs bu əlaqə nə vaxt və necə yaranmışdır? Bəs əşyalar, predmetlər səsçıxarma və səsqavrama dairəsinə necə düşmüşdür? İlk insanların səs mexanizmi fərdlərin əşya, predmet və obyektlərlə rəftar dairəsinə necə nüfuz etmişdir?

Müasir psikolinqvistika (və habelə psixologiya) elmi o dərəcə inkişaf etməmişdir ki, bu suallara

birmənalı, konkret cavab vermək mümkün olsun. Bu sahədə yalnız bir neçə fərziyyə irəli sürmək olar.

Bu problemin izahında psikoloqların fikri maraqlıdır. A. Vallon yazır ki, uşağın fərdi irsi sensomotor aparatında təfəkkürün inkişafı zamanı fasiləsizlik mövcud deyildir: nitqi mənimsəməklə yanaşı prinsipcə başqa determinatorlar onun davranışına daxil olur. L. S. Vıqotski «iki kök» haqqında idiya irəli sürmüşdür: nitq ontogenez və filogenezdə ağlın tarixdən əvvəlki dövrü ilə, yəni təfəkkür əşyaları ilə birləşməzdən əvvəl özünün tarixdən əvvəlki dövrünə malik olur, yeni hadisə insan psikikasının nitq-təfəkkür funksiyasını törədir.

A. P. Potseluyevskinin bu sahədəki fikirləri də maraqlıdır. O, insanın səsli nitqinin ən qədim forma və pillələrinin rekonstruksiyası metodlarını axtararkən insanların ev heyvanlarına spesifik müraciətlərini toplamış və təhlil etmişdir. N. Y. Marr kimi, A. P. Potseluyevski də belə hesab edir ki, insanlar da heyvanlarla birlikdə əhliləşmişlər, lakin insanların ev heyvanları ilə münasibətləri o zamandan indiyədək az təkamül etmişdir, buna görə də heyvanlara müasir xitabın nitq formaları ən qədim nitqin bəzi xüsusiyyətlərini dərk etmək üçün mənbə ola bilər. Tədqiqatın bu metodunun əsaslandırılmasında bəzi qüsurlar olsa da o, əşyaların nitq dairəsinə düşməsi probleminin həlli üçün xeyli material verir. Müəllif heyvanlara müraciəti iki kompleksə bölür: 1) çağırmaq (daha qədimdir) və 2) qovmaq, habelə daha sürətlə getməyə və s. məcbur etmək (xeyli sonralar yaranmışdır). Bu müraciətlərin mürəkkəbləşdirilməsi duplikasiya və multiplikasiya, iki müxtəlif əsasın birləşdirilməsi, diferensiasiyası isə həm də intonasiya vasitəsilə baş vermişdir.

A. P. Potseluyevski belə bir nəticəyə gəlir ki, səsli nitqin ən qədim tipi semantik və formal cəhətdən diferensiallaşmayan, ayrı-ayrı ünsürlərinə bölünməyən «söz-monolit» olmuşdur. Belə söz-monolitlərin əsas vəzifəsi danışanın öz arzusunu, istəyini, tələbini yaxud iradəsini xəbər verməkdir, buna görə də güman etmək olar ki, onların ilkin funksiyası indiki fellərin əmr formasının funksiyası kimi olmuşdur. Felin əmr forması səsli dilin ən qədim faktıdır. «İnsanın əcdadlarının üzvlənməyən söz-monolitlər işlətməsi bu və ya digər, nəticə yaxud hökmü xəbər vermək zərurəti ilə əlaqədar deyildir. Söz-monolit hökmün deyil, danışanın iradəsinin yaxud arzusunun ifadəçisi olmuş və söz-monolitin özünün deyilməsi yalnız cari anın konkret tələbindən irəli gəlmişdir. Buna görə də söz-monolitlərin daxili məzmununda məntiqi hökmün heç bir ünsürünü axtarmaq olmaz» 6.

A. P. Potseluyevskinin fikrincə, söz-monolitin adlandırma funksiyası çox sonralar onun ilkin verbal-imperativ funksiyası əsasında törəmişdir. Söz-monolitlər gerçəkliyin ayrıca ünsürlərini işarə etmək üçün işlədilməyə başlanmışdır. Belə sözlər iradə işarələrindən təsəvvür işarələrinə, fikir əşyaları işarələrinə çevrilir. Söz-monolitlərdə yeni əqli funksiyanın (təsəvvür yaxud məfhum işarəsi kimi) təzahürü ona ibtidai fikir aləti olmaq imkanı verir. Söz-monolit öz diferensiallaşmamasını və üzvlənməsini itirmədən, ilk dəfə

qavrama hökmünün xəbərinin (predikatının) sözlü ifadəçisi şəklində fikir aləti olur 7. Bu, düzgün söylənilmiş fikirdir. Lakin buna baxmayaraq müəllif söz-monolit yeni funksiyasının yaranması prosesini adlandırma funksiyasının xeyli əvvəl mövcud olan ilkin verbal-imperativ funksiyası ilə birləşməsi prosesini göstərmir.

Şeylər sözlərlə necə birləşmişdir? Görkəmli filosof B. F. Porşnevin bu haqdakı fikirləri maraqlıdır. Onun şeylərin sözlərlə birləşməsi haqqındakı fikirlərini bəzi əlavə və təshihlərlə qısa xülasə edirik.

Sözlər şeylərə işarə etməzdən xeyli əvvəl şeylər işarə üçün, daha doğrusu, sözləri fərqləndirmək üçün işlədilmişdir. Şüur inkişaf etdikcə səs komplekslərini fərqləndirməyə olan ehtiyac mövcud olan nitq vasitələrini getdikcə sürətlə qabaqlayır. Diffuz səslərin miqdarını artırmaq üçün yeni fonoloji müxalifət yaxud mövcud komplekslərin yeni birləşmələrini yaratmaq lazım gəlirdi. Müxalifət yaxud səs birləşmələri yaratmaq üçün isə imkan xeyli məhdud idi. Buna görə də diffuz səsləri fərqləndirmək üçün danışan müxtəlif hərəkətlərdən istifadə edir - iki fərqli hərəkətlə müşayiət edilən bir diffuz səs artıq bir söz yox, iki müxtəlif sözdür. Lakin hərəkətlərin böyük əksəriyyəti əşyalıdır, daha dəqiq desək, hərəkətlər, bu və ya digər əşya ilə edilir; əşyalar müxtəlif olduğu üçün hərəkətləri qarışdırmaq olmaz. Beləliklə, şeylər yavaş-yavaş sözlərə «daxil olur».

Bu hələ bir şeyin xəbər verilməsi deyil, yalnız ünsiyyətdir. Müəyyən bir hərəkəti əyləndirən yaxud hərəkət üçün əmr verən siqnallar inkişaf edir; səsli olmaqla yanaşı bunlar həm də hərəki və görünən olur. İndi bir hərəkəti əyləndirmək yaxud başlamaq üçün diffuz səsdən başqa, eyni zamanda, məsələn, əl hərəkətindən, çox vaxt həm də bu və ya digər əşyanı (obyekti) göstərməkdən də istifadə edilir. Beləliklə, nisbətən az miqdar səs siqnalı vasitəsilə çoxlu və fərqli əmrlər vermək olur.

Dillərdə mövcud olan qəribə bir fakt bu fikri təsdiq etməyə kömək edir: dillərdəki ən qədim sözlər çoxmənalı olur - bir «söz» bir neçə müxtəlif cinsli «əşyaya» işarə edir (omonimlər). Əslində bunlar eyni bir söz deyil, eyni səs komponentinə malik olan müxtəlif sözlərdir. Dilin inkişafının bu dövründə şeylər hələ denotatlar 8 deyil, işarəciklərdir.

Məlum olduğu kimi işarənin işarə etdiyi əşya ilə heç bir səbəbiyyət əlaqəsi yoxdur. Xüsusi adların semasioloji təbiəti bu fikri sübut edə bilər. Lakin bu heç də o demək deyildir ki, təlqin siqnallarının səs və əşya komponentləri arasında heç bir əlaqə yoxdur. Əşya komponenti yarandıqda onunla səs komponenti arasında müəyyən bir qarşılıqlı əlaqə yaranmalı idi. Əşya komponenti sözlərin «formantları» 9 kimi çıxış edir və səs komponentinə nisbətən daha sürətlə artır. Bu mənada sözlər şeyləri işarə etməzdən xeyli əvvəl şeylər sözləri işarə etmişdir. Müasir təcrübəyə müraciət etsək, şeylərin işarə funksiyası daşımasına indi də kifayət qədər nümunə tapa bilərik (güman ki, bu; qədimin izi-dir); gözmuncuğu, tikan, hər hansı bir əşya işarə kimi işlədilə bilər. Biz bilirik ki, işarənin işarə edilənin təbiəti ilə heç bir ümumiliyi yoxdur. Buna görə

də deyə bilərik ki, bu əşyalar insanlar arasında bu şeylərə aid olmayan qarşılıqlı münasibətlərin işarələridir. İndi bu şeylər müəyyən bir müqəddəslik, sehrlik və s. çaları daşıdığı üçün güman etmək olar ki, ehkamlar, totemlər, əşya-tabular həqiqətən də müəyyən əmrlərin yaxud əyləncin işarəsi kimi yaranmışdır. Lakin sözün əsl mənasında bu səslərin işarələri olmaq üçün şeylər bu funksiyada cüt (yaxud daha geniş) qarşılıqlı əvəzlənmə yaxud ekvivalentlik kəsb etməli idi.

Şeylər ikinci siqnal sisteminə daxil olduqdan sonra iki inkişaf yolu keçə bilər:

1) səslərdə olduğu kimi, bu yeni funksiyasında şeylərlə nə baş verir; 2) siqnalın komponentləri kimi səslərlə şeylər arasındakı münasibətdə nə baş verir; onların yerdəyişməsi necə baş verir.

1. Şeylər təlqin siqnalları kimi işləndikdə onlarda da səslərdə fonetik səviyyədən fonoloji səviyyəyə keçidə bənzər bir hadisə baş verməli idi, yəni şeylər sadə fərqlilikdən əlavə bir də qarşılaşdırıla bilmə əlaməti kəsb etməli idi. Ən ilk müxalifət sırasına şeylərin toxunula bilmək və toxunulmazlıq qarşılaşdırılmasını aid etmək olar. Biz hansı jestin şeyə toxunula bilmək, hansının toxunulmazlıq xüsusiyyətini verdiyini qəti deyə bilmərik, çünki eyni bir jest müxtəlif xalqların ənənəsində bəzən zidd mənalar ifadə edir (məsələn, başın yuxarıdan aşağı endirilməsi bəzi xalqlarda «bəli», digərində «xeyir» deməkdir və i. a.). B. F. Porşnevin yazdığına görə, ilkin dildə işarə jesti toxunulmazlıq jesti olmuşdur və ola bilər ki, nə vaxt isə onun özü təbiətinə görə toxunulmağı istisna edilən obyektlərlə (məsələn: göy, günəş, od, göz və s.) «işarə edilmişdir» 10.

Zaman keçdikcə, prinsipcə yeni əsəb hadisəsi - şeylərin daxili obrazları təzahür edir. Bu, artıq təsəvvürə keçid pilləsidir.

2. Nə qədər ki, şey səslə birlikdə bir siqnal kompleksində yerləşir, onların arasında olan hər hansı bir «münasibətdən» danışmaq olmaz. Onlar «monolit» təşkil edir. Münasibət yalnız o zaman baş verə bilər ki, onlar «ya-ya» müxalifətində olsun, daha sonra isə müxalifətdə olmalarına baxmayaraq müxalifət vasitəsilə yenidən «və-və» vəhdətini təşkil edə bilsin.

Bitişiklikdən qarşılaşdırmaya keçidi necə təsəvvür etmək olar? Bizim qəbul etdiyimiz kimi, eyni bir səs-kompleks (diffuz səs) müxtəlif şeylərə monipulya-etmə vasitəsilə birləşmiş və bu şey formantların köməyilə müxtəlif sözlər alınmışdır. Bu proses inkişafda əks istiqamətdə də olmuşdur: bu və ya digər şeyi müxtəlif səs-komplekslərlə də birləşdirmişlər. Bonunla da sözləri «qarışdırmış» və onları əsəb sisteminə və davranışa müəyyən təsiretmədən məhrum etmişlər. Bu qarışıqlıqdan çıxış yolu kimi modallığına görə siqnalları qarşılaşdırmışlar: ya səs, ya da şey siqnalından istifadə etmişlər. Səs-komplekslər və şeylər bir-birindən ayrılsa da eyni şəraitdə əvvəlki kimi bir-birini əvəz etmişdir. Buradan da yeni münasibət meydana gəlmişdir: fərdlərarası təsirdə səs siqnalları və əşya siqnalları bir-biri ilə əsla qarışdırılmadan (biri

oyadıldıqda digəri əylənir) eyni zamanda öz təsirinə görə eyniyyət təşkil etmişdir. Beləliklə, əməyin hələ erkən inkişafı dövründə sözlərlə şeylərin münasibətində çevriliş əmələ gəlmiş və şeylər sözlərə qalib gəlmişdir. Məhz bu dövrdə sintaqm yaranmış və bu da dilin inkişafında nəhəng addım olmuşdur. Sintaqm 11 - eyni modallıqlı iki cütləşdirilmiş ünsürdür. Müasir.dilçilik baxımından iki leksik (semantik) Mənası olan sözün tabelilik əsasında birləşməsinə sintaqm deyilir. Dilin yarandığı dövr üçün isə iki diffuz səsin (iki səs-kompleksin) yaxud bir diffuz soslə (səs-kompleksla) bir şeyin və ya iki şeyin modallıq əsasıida birləşməsini, daha geniş mənada götürsək, qarşılıqlı əlaqədə olan iki səs siqnalını sintaqm adlandırmaq olar. Sintaqmın meydana gəlməsi dilin inkişafında irəli atılmış nəhəng bir addım idi. Onun sayəsində gələcəkdə müxtəlif ənənələr yaranır: az fərqli sözlər söz-dupllərdə birləşir; söz qafiyədən yaranır; oxşar olmayan sözlər çarpazlaşır; sözlərə inkarlıq artırmaqla onlar məhv edilir; oxşar olmayan sözlər bir-birinə qarşı qoyulur. Bu prosedurda həqiqi sözlər yaranır. Predmet və operasionallıq modallığın-da isə sintaqm - bu əşyanın hissəsini butöv əşyaya oxşatmaq, bir əşyaya bənzər digər əşyalar tapmaq, iki fərqdən bir əşya təşkil etmək və s. deməkdir.

Sintaqmın təzahürü ikinci siqnal sistemində səslər və şeylər arasında munasibətin inkişafında yeni mərhələ idi: onların arasında dinamik mustəqillik yaranır, lakin onlar bir-birindən aralanmır.

Beləliklə, şeylər əvvəlcə fərdlər arasında köməkçi vasitə kimi ikinci siqnal sisteminin fəaliyyətinə cəlb edilir və bu proses uzun müddət davam edir. Sonra elə vaxt gəlir ki, şeylər sözlərin işarəsi olmaqdan çıxır, sözlər şeylərin işarəsinə çevrilir; ikinci siqnal sistemi şeylərə işarə edir. Qavramanın, dərketmənin tarixi də sözlərin şeylərin işarəsinə çevrilməsindən başlanır.

## *Dilin və Nitqin Funksiyalari*

«Dilin ictimai funksiyaları onun quruluşu, sistem əlaqələri və inkişaf qanunauyğunluqdarına münasibətdə xarici və etinasız bir şey deyildir... Dilin təşkili və inkişafının bünövrəsinə qoyulmuş dil imkanlarının həyata keçirilməsi dilin cəmiyyətdəki funksiyaları ilə əlaqədar olan ictimai faktorlarla bu və ya digər dərəcədə qabaqcadan müəyyənləşdirilir» 12. Lakin dilin ictimai funksiyalarından danışarkən unudulur ki, dil öz ictimai funksiyalarını mücərrəd sistem şəklində deyil, konkret nitq situasiyalarının məcmusunda, nitq fəaliyyətində, qısası, səsli-sözlü nitq şəklində həyata keçirir. Ictimai faktorların dilə təsiri də, dildə inikası da məhz nitq fəaliyyəti vasitəsilə baş verir.

Adətən, dilçilik ədəbiyyatında dilin ünsiyyətə xidmət etməsindən danışılır. Bu da məlumdur ki, ümumiləşdirmə olmadan heç bir ünsiyyət mümkün deyildir: təfəkkür yalnız ümumiləşdirmə vasitəsilə gerçəkliyi inikas edir. Deməli, insanın nitq faaliyyətində ünsiyyət və ümumiləşdirmə dialektik vəhdət təşkil

edir. Dilin ictimai funksiyaları da ünsiyyət və ümumiləşdirmə vəhdətinin eyni zamanda həyata keçirilməsindən başqa bir şey deyildir.

Dilçilik ədəbiyyatında dil və nitq həmişə fərqləndirildiyi halda nədənsə onların ictimai funksiyaları fərqləndirilmir, hər iki hadisənin funksiyası dilin funksiyaları kimi təqdim edilir. Məsələn, R. Yakobson nitq aktı modelindən danışarkən nitq aktını təşkil edən bu faktorları qeyd edir: a) göndərən, b) qəbul edən, v) kontekst, q) kod, ğ) kontakt və d) məlumat. Buna uyğun olaraq o, dilin altı funksiyasını göstərir: 1) emotiv funksiya (danışanın hiss və iradəsini ifadə edən funksiya), 2) konnativ funksiya (vokativ-imperativ yaxud modallıq funksiyası), 3) referent funksiyası (xarici aləm əşyalarını göstərmək funksiyası), 4) dil haqqında dil vasitəsilə danışmaq imkanını şərtləndirən metadil funksiyası, 5) fatik funksiyası (kontakt yaratmaq funksiyası) və 6) poetik funksiya13.

Sovet dilçiliyində dilin funksiyaları haqqında B. A. Serebrennikov, Y. D. Deşeriyev, A. A. Leontyev, V. A. Avrorin və başqaları. ətraflı surətdə yazmışlar. Dilçilərdən əlavə dil və nitq probleminə toxunan bütün filosof və psikoloqlar da dilin və nitqin funksiyaları məsələsindən geniş surətdə danışmışlar. Y. D. Deşeriyev istisna edilərsə, dilin (və nitqin) funksiyaları haqqında dilçi, psikoloq və filosofların söylədikləri fikirlər bir-birinə yaxındır. Y. D. Deşeriysv dilin kommunikativ, ictimai, ekspressiv, estetik və qnoseoloji funksiyaları olduğunu göstərir 14, başqa bir yerdə isə dilin ideoloji funksiyasından da danışır, həm də dilin və nitqin ideoloji funksiyalarını fərqləndirir 15. Qeyd etmək lazımdır ki, dilin və nitqin funksiyalarının fərqləndirilməsi elmi ədəbiyyatda yeni hadisə deyildir. Hələ 1941-ci ildə alman psixoloqu F. Kaynts «Dilin psikologiyası» adlı əsərində dilin funksiyalarını «ilkin» və «törəmə» deyə iki qismə bölür, ilkin funksiyaların dil üçün məcburi, törəmə funksiyaların isə fakültətiv mahiyyət daşıdığını yazır 16. Sonralar bu ideya psikologiyadan dilçiliyə gətirilmişdir, lakin göstərmək lazımdır ki, dilçilər dilin funksiyaları və nitqin funksiyaları terminlərindən nadir hallarda istifadə edirlər. Əlbəttə, bu məsələyə münasibətdə psixoloqlar daha haqlıdırlar və dilin funksiyaları ilə nitqin funksiyaları fərqləndirilməlidir.

Dilin funksiyaları dedikdə nitq fəaliyyətinin elə funksional xüsusiyyətləri nəzərdə tutulur ki, bunlar hər hansı bir nitq situasiyasında özünü göstərə bilir, başqa cür desək, bunlar situasiyadan asılı deyil, situativ səciyyə daşımır. Nitqin funksiyaları isə hər hansı nitq aktı uçün məcburi deyil, situativ səciyyə daşıyır.

**Dilin funksiyaları**. Dilin funksiyaları elmi anlayış kimi dilin mahiyyətinin praktik təzahürü, ictimai hadisələr sistemində onun məqsədinin həyata keçirilməsi, dilin təbiəti ilə şərtlənən hərəkətidir. Dilin funksiyaları elə bir şeydir ki, bunsuz dil mövcud ola bilməz. Elmi ədəbiyyatda dilin çoxfunksiyalı olduğu, həm də bu funksiyaların bir-biri ilə sıx əlaqədə olduğu göstərilir. İnsanın nitq fəaliyyətində dilin aşağıdakı funksiyalarından danışmaq olar: 1) dilin kommunikativlik funksiyası, 2) dilin tənzimləyici funksiyası, 3) dilin idrak (konstruktiv) funksiyası, 4) dilin bəşəriyyətin ictimai-tarixi təcrübəsinə yiyələnmə

(akkumulyativ) funksiyası, 5) dilin milli-mədəni funksiyası, 6) dilin ekspressiv funksiyası, 7) dilin estetik funksiyası, 8) dilin ideoloji funksiyası.

**Kommunikativ yaxud ünsiyyət funksiyası** dilin əsas funksiyasıdır, dilin bütün digər funksiyaları məhz bu funksiya əsasında baş verir, bütün funksiyalar bu funksiya ilə şərtlənir. «Dilin insanlar arasında ən mühüm ünsiyyət vasitəsi» olması dilin ünsiyyət funksiyasının dilin mahiyyətini təşkil etməsinə sübutdur. Əslində ünsiyyət ehtiyacı - cəmiyyət üzvlərinin bir-birinə nə isə demək ehtiyacı dili yaratmışdır. Kommunikativ funksiya dilin yaranması və inkişafında mühüm rol oynamışdır. Dilin kommunikativ funksiyasının insan həyatındakı rolunu aydın göstərmək üçün təkcə belə bir faktı qeyd etmək lazımdır ki, ünsiyyət vasitəsi olmadan, dil olmadan cəmiyyət özü yaşaya bilməz, cəmiyyət mövcud ola bilməz.

Dil kommunikativ funksiya yerinə yetirmək sayəsində həm özü inkişaf edir, həm də cəmiyyətin inkişafına kömək edir. Kollektiv üzvlərinin bir-biri ilə ünsiyyəti prosesində dil inkişaf edir, onun qrammatik quruluşu, qrammatik kateqoriyaları təşəkkül tapır və inkişaf edir; dil inkişaf etdikcə cəmiyyət də, ictimai şüur da inkişaf edir.

Dilin kommunikativ funksiyası dilin bütün digər funksiyalarında da təzahür sdir.

Dilin əsas funksiyalarından biri də **tənzimləyici funksiası**dır. Dilçilik ədəbiyyatında dilin tənzimləyici funksiyası məsələsinə toxunulmur; psikologiyaya həsr edilmiş əsərlərdə bu funksiya, ya dilin kommunikativ funksiyası ilə, ya da dilin idrak funksiyası ilə ya eyniləşdirilir, ya da qarışdırılır. Lakin bunlar dilin ayrı-ayrı funksiyalarıdır.

Dilin tənzimləyici funksiyasının mahiyyətini qısaca belə izah etmək olar: dil insan davranışını, əxlaqını, müəyyən mənada dünyagörüşünü tənzimləyən əsas, bəlkə də yeganə alətdir, vasitədir. Sovet dilçiliyində bu ideya qəbul edilməsə də o, psixologiya elmində özünə yol açmaqdadır. Məşhur sovet neyropsikoloqu A. R. Luriya yazır ki, nitqin ən əsas funksiyası-məlumatı nəqletmə funksiyası ilə yanaşı «onun (nitqin) mürəkkəb psiki proseslərin təişkkülündə elə o qodər əhəmiyyətli rol oynayan daha bir cəhəti də mövcuddur. Nitq təkcə əldə edilmiş təcrübənin ümumiləşdirilməsi vasitəsi və kodlaşdırılması aləti kimi xidmət etmir. O insan davranışını tənzim edən ən əhəmiyyətli vasitələrdən biridir»17. Bu sözlərə təkcə onu əlavə etmək lazımdır ki, nitq insan davranışını tənzimləyən əhəmiyyətli vasitələrdən biri yox, yeganə vasitədir, belə ki, nitqdən başqa insan davranışını tənzim edən yaxud edə bilən ikinci bir vasitə göstərmək mümkün deyildir. İnsanlar arasındakı bütün bazis (məsələn, iqtisadi münasibətlər) yaxud üstqurum (hüquq normaları, əxlaq və s.) səciyyəli əlaqələrin hamısı yalnız və yalnız nitq əsasında meydana gəlir və tənzim edilir. Sovet filosofu B. F. Porşnevə görə, dilin tənzimləyici funksiyası digər funksiyalarından, o cümlədən məlumatı nəqletmə və təcrübə mübadiləsi funksiyalarından daha qədimdir, onlara nisbətən ilkindir 18.

A. A. Leontyev psikologiya baxımından nitqin tənzimləyici funksiyasını belə təsnif edir: «Nitq fəaliyyətində bu funksiya üç mümkün variantdan birində çıxış edir:

a)fərdi-tənzimləyici funksiya kimi, yəni bir yaxud bir neçə adamın davranışına seçici təsir funksiyası kimi;

b)kollektiv-tənzimləyici funksiya kimi - böyük və diferensiallaşmamış auditoriya üçün nəzərdə tutulmuş kütləvi kommunikasiya (natiq nitqi, radio, qəzet) adlanan şəraitdə;

v)özünütənzimləyici funksiya kimi - öz davranışını planlaşdırdıqda» 19.

Onu qeyd etmək vacibdir ki, A. A. Leontyev dilin (nitqin) tənzimləyici funksiyasını kommunikativ (ünsiyyət) funksiyası ilə eyniləşdirir.

Dilin tənzimləyici funksiyasının insanın həyatındakı rolu çox böyükdür; bu funksiyanın rolunu dilin ünsiyyət və idrak funksiyalarının rolu ilə müqayisə etmək olar. Lakin dilin tənzimləyici funksiyasının insan həyatındakı rolunu dilin başqa funksiyaları hesabına yaxud insanın idrak fəaliyyətinin (mən qəti bu fikirdəyəm ki, insanın idrak fəaliyyəti nitqsiz mümkün deyildir) əhəmiyyətini azaltmaq hesabına şişirtmək olmaz. Belə sola getmə xarici dilçilikdə neohumboldtçuluq cərəyanının və Səpir-Uorf fərziyyəsinin meydana gəlməsinə səbəb olmuşdur. Neohumboldtçular iddia edirlər ki, insanlar maddi aləmi yalnız dil vasitəsilə qavrayırlar. Onlar gerçəkliyin dərk edilməsində, qavranılmasında şüurun rolunu düzgün başa düşmürlər. Səpir-Uorf fərziyyəsinə görə isə insanların dünyagörüşü, dünyaya baxışı dil vasitəsilə formalaşır; gerçəkliyin eyni bir hadisəsi müxtəlif dillərin nümayəndələri tərəfindən müxtəlif şəkildə dərk edilir; müxtəlif dillərin nümayəndələri dünyanı müxtəlif şəkildə görür.

Dilin insan həyatındakı əvəzedilməz roluna baxmayaraq insanların dünyabaxışının, obyektiv gerçəkliyin dil əsasında, obyektiv kateqoriyaların dil kateqoriyaları əsasında təşəkkül tapdığını, formalaşdığını söyləmək, əlbəttə, düz deyildir. Dil şüur vasitəsilə obyektiv gerçəkliyi dərk etməkdə böyük əhəmiyyətə malik olsa da obyektiv gerçəklik dildən asılı deyildir.

Obyektiv gerçəkliyin dərk edilməsində, maddi aləmin əşya və hadisələrinin qavranılmasında dilin idrak funksiyasının əhəmiyyəti böyükdür. Dilçilikdə buna dilin qavrama, nominativ, konstruktiv, təfəkkür funksiyaları da deyilir. Dilin idrak funksiyası obyektiv gerçəkliyin əşya və hadisələrini adlandırmaq, fikri formalaşdırmaq, bizi əhatə edən gerçəklik haqqında məlumat almaq vasitəsidir.

Dilin idrak funksiyası termini dilin nominativ (adlandırma) funksiyası termininə nisbətən daha geniş əhatə dairəsinə malikdir, çünki dilin idrak funksiyası adlandırmaya nisbətən daha geniş əqli prosesləri əhatə edir, halbuki nominativ funksiya yalnız obyektiv aləmdəki əşya və hadisələri adlandırmağa, məfhumları

sözlərlə işarə etməyə xidmət edir.

Hələ vaxtilə A. A. Potebnya yazırdı ki, «dil artıq hazır fikrin ifadə vasitəsi deyildir, dil fikri yenidən yaradır». İnsan sözlər və sözlərin birləşməsi vasitəsilə onu əhatə edən obyektiv aləm haqqındakı fikirlərini ifadə edir. Söz məfhumları yaradır. Substansiyanın atributa munasibəti sözlərin birləşməsini tələb edir. Beləliklə, dil sözlər və söz birləşmələri vasitəsilə məfhum və fikirləri ifadə edən alətə çevrilir. V. Humboldtdan başlayaraq müasir dövrümuzədək dilin təfəkkür aləti olması haqqında bəhs edilmişsə də dilin bu funksiyasının problemləri hələ kifayət qədər tədqiq edilməmişdir.

Dil təfəkkür aləti olmaq üçün bir sıra funksiyaları həyata keçirir. Dilin idrak funksiyasına daxil olan bu yarımfunksiyalar istər dilçilik, istərsə də psikologiyaya həsr edilmiş ədəbiyyatda zəif tədqiq edilmişdir. Bu sözlər hər şeydən əvvəl semasioloji funksiyaya aiddir. Məlum olduğu kimi, semasiologiya sözlərin mənasını, yəni sözlə (adla) əşya arasındakı münasibəti öyrənir. Söz məhz məna vasitəsilə məfhumla əlaqə saxlayır, dil isə məhz sözlərin mənalandırma xüsusiyyəti vasitəsilə fikri ifadə etmə alətinə, təfəkkür alətinə çevrilir. Dilin semasioloji funksiyasına nisbətən nominativ (adlandırma) funksiyası bir qədər ətraflı tədqiq edilmişdir. Elmi ədəbiyyatda göstərildiyi kimi, sözlə (adla) onun adlandırdığı əşya arasında heç bir üzvi əlaqə yoxdur. K. Marks yazır: «heç bir şeyin adı onun təbiəti ilə əsla əlaqədar deyildir Göründüyü kimi, sözün əşya ilə münasibətini göstərmə üçün təkcə nominativ funksiya kifayət etmir, Bu əlaqəni yaratmaq üçün təsvir funksiyasından istifadə edilir Bu funksiyanın mahiyyəti müəyyən bir dil vahidinin ayrıca bir denotata yönəlməsindədir. Təsvir funksiyasının adlandırma funksiyası ilə əlaqəyə girməsindən keyfiyyətcə yeni olan ifadə funksiyası yaranır. Bu funksiya özünü mətn səviyyəsində göstərir. Mətn təsvir edilən əşyanın əlamətlərini təsbit edir. Bununla da bu funksiya əşyanın əlaməti haqqında məlumatın (informasiyanın) daşıyıcısına çevrilir. Beləliklə, mətn sadəcə olaraq fikirlə bağlı deyil, həm də hərfi mənada fikrin daşıyıcısıdır. Buna görə də biz mətni dinlədikdə hətta heç vaxt görmədiyimiz və haqqında heç bir şey bilmədiyimiz əşya haqqında ətraflı məlumat alırıq.

Dilin idrak funksiyasından danışarkən bir məsələni də izah etmək lazımdır. İnikas ilə inikas etdirmə qabiliyyətini fərqləndirmək zəruridir. Dilin bəzi strukturları inikas etdirmə qabiliyyətinə malikdir, lakin özləri inikas etmir, inikas etdirmə qabiliyyətini dil vasitələrindən əxz edir.

İnikas qabiliyyətinin həyata keçirilməsi inikasın təzahürü olmadan mümkün deyildir - fikrin təzahürü dilsiz mümkün deyildir. Dil fikrin mövcudluğunun zəruri şərtidir. Bununla da dil fikrin formalaşdırılması aləti kimi çıxış edir.

Dil fikrin təzahürü üçün əsas şərt olduğu kimi, canlı müşahidədən fikrə keçidi təmin edən əsas vasitədir. Biz naməlum bir əşya kəşf etdikdə onun məzmunu haqqında ilk məlumatı canlı müşahidə şəklində, keçirdiyimiz çoxlu hisslər şəklində alırıq. Sözlər vasitəsilə bu hissləri adlandırırıq, sözlərin birləşməsi

vasitəsilə bu hisslər arasındakı əlaqələri təsbit edirik. Nəticədə dil vasitələrinin köməyi ilə əşya təsvir edilir; əşya haqqındakı hissi-obrazlı məlumat (informasiya) semasioloji məlumat (informasiya) kimi kodlaşdırılır. Canlı seyrdən, canlı müşahidədən fikrə keçid belə baş verir.

Dilin funksiyalarından biri də **bəşəriyyətin ictimai-tarixi təcrübəsini toplamaq, ona yiyələnmək funksiyasıdır, qısaca desək, dilin akkumulyativ funksiyasıdır**. Məlum olduğu kimi, hər yeni insan nəsli öz fəaliyyətini nəsillərin əldə etdiyi təsərrüfat, elm və texniki nailiyyətlər üzərində qurur. Hər yeni insan nəsli öz fəaliyyətinə ibtidadan, necə deyərlər, sıfırdan başlasa idi, onda bəşəriyyət nə indiki inkişaf səviyyəsinə çata bilərdi və nə belə bir inkişafı xəyalına gətirə bilərdi. Mübaliğəsiz demək olar ki, bəşəriyyətin qazandığı bütün nailiyyətlər, təsərrüfat, elm, texnika, ədəbiyyat və mədəniyyətin inkişafındakı müasir səviyyə yalnız dil sayəsində mümkün olmuşdur. İstər təsərrüfat, istərsə elm və mədəniyyət sahəsində irəli daha bir addım atmaq üçün bəşəriyyətin əvvəlki ictimai-tarixi təcrübəsinə yiyələnmək və ondan səmərəli istifadə etmək lazımdır. Dilin bəşəriyyətin əvvəlki ictimai-tarixi təcrübəsini .toplamaq, ona yiyələnmək və ondan istifadə etmək funksiyasına **akkumulyativ** funksiya deyilir.

Dilin akkumulyativ funksiyası iki aspektdə təzahür edir:

a) məlumatın toplanması vasitəsi;

b) məlumatın nəql edilməsi vasitəsi.

Dilin akkumulyativ funksiyası bu iki aspektin birləşməsi nəticəsində yaranır, çünki bu aspektləri ayrılıqda götürsək, birinci aspekt dilin idrak funksiyasına, ikinci aspekt dilin kommunikativ (ünsiyyət) funksiyasına uyğun gələrdi.

Dilin akkumulyativ funksiyasının istər fərdi, istərsə ictimai planda bəşəriyyətin inkişafı üçün böyük əhəmiyyəti vardır. Aydındır ki, əqli fəaliyyati (ümumiyyətlə, hər hansı bir fəaliyyəti) həyata keçirmək üçün insan dil vasitəsilə biliklərin, təcrübənin müəyyən məcmusuna yiyələnməlidir. Məhz dil biliklər məcmusunu ayrıca fərdə çatdıran əsas və əvəzedilməz vasitədir.

Fərdi aspektdən ictimai aspektə keçdikdə dilin bu funksiyası ictimai-tarixi təcrübənin mövcudluğu formasına uyğun gəlir. Dil bəşəriyyətin ictimai-tarixi təcrübəsinin mövcudluq forması olduğu üçün, demək olar ki, bu mənada aləm insan üçün həqiqətən də dillə «parçalanır»; lakin eyni zamanda dil - onu formallaşdırılmış sistem kimi yox, dil təfəkkürü kimi götürsək - bəşəriyyətin ictimai təcrübəsini əks etdirir. Təsadüfi deyildir ki, biz müxtəlif dillərdə semantik dəyişmələrin bir-birinə oxşar, analoji mənbə və inkişaf istiqamətlərinə rast gəlirik. Bu, müxtəlif dilli xalqların nəzəri fikrinin vəhdətini inikas etdirir.

**Dilin milli-mədəni funksiyası** dilin akkumulyativ funksiyası ilə sıx əlaqədardır. Bəşoriyyətin

yuxarıda göstərdiyimiz ictimai-tarixi təcrübəsinin ümumi ünsürləri ilə yanaşı yalnız bu və ya digər milli mədəniyyətə mənsub olan ünsürləri də vardır. Başqa sözlə desək, dil mənsub olduğu xalqın spesifik əmək şəraitinin, ictimai, mədəni həyatının mövcudluğundan doğan və həmin xalqın tarixi təcrübəsi ilə cilalanan realiyaları, mücərrəd anlayışları və s. inikas etdirir və gələcək nəsillər üçün qoruyur. Bu baxımdan dilin milli-mədəni funksiyasından danışmaq olar. Onu da demək lazımdır ki, xalqın mədəni səviyyəsinin yüksəlməsi, xalqlar arasında iqtisadi, siyasi və mədəni əlaqələrin genişlənməsi nəticəsində dilin milli-mədəni funksiyasında dilin akkumulyativ funksiyasına doğru çevrilmə prosesi gedir.

Dilin milli-mədəni funksiyasının mövcudluğu özünü dilin bütün səviyyələrində göstərir. Eyni bir anlayışın və hadisənin müəyyən bir xalq tərəfindən mənalandırılma spesifikası adlandırma, semantik və səs dəyişmələrinin xüsusiyyətlərində gerçəkliyin dil tərəfindən «parçalapmasında», «üzvlənməsinin» səciyyəsində özünü aydın şəkildə göstərir. Bu mənada dil nəinki təfəkkür aləti və ictimai-tarixi təcrübənin mövcudluğu forması kimi çıxış edir, həm də təfəkkür və idrakın nəticələrini möhkəmləndirir. Lakin təfəkkür və idrakın nəticələrinin möhkəmləndirilməsi üsulunu dilin milli spesifikası ilə eyniləşdirmək, həmin dildə təfəkkürün xarakterinə keçirmək qətiyyən olmaz.

Çox vaxt dilçilik ədəbiyyatında dilin yalnız iki funksiyası olduğu göstərilir: kommunikativ funksiya və ekspressiv funksiya. **Dilin ekspressiv funksiyası** onun məumatı (informasiyanı) ifadə etmək, nəql etmək və müsahibə (dinləyənə) təsir funksiyasıdır. «Dilin fikri təcəssüm etdirməsi onun ekspressiv vəzifəsi adlanır»20. Qısa desək, ekspressiv funksiya dilin ifadə funksiyasıdır. Dilin ekspressiv funksiyası təkcə fikrin ifadəsi ilə məhdudlaşmır, insan emosiyasının dildə ifadə edilməsi də dilin bu funksiyasına daxildir. Düzdür. dilçilik ədəbiyyatında (habelə psixologiyaya həsr edilmiş əsərlərdə) insan emosiyasının ifadə edilməsi dilin yox, təkcə nitqin funksiyası hesab edilir və nitqin emotiv funksiyası adlandırılır (bax: «Nitqin funksiyalası»), lakin insan emosiyasının ifadəsində dil vasitələrindən də istifadə edildiyi üçün onu dilin ekspressiv funksiyasına da aid etmək olar. İnsan emosiyasını ifadə etmək üçün dildə ən çox nidalardan, imperativ sözlərdən və bir sıra münasibət bildirən söz və ifadələrdən (söz birləşmələri, cümlələr) istifadə edilir; dilin bəzi qrammatik formaları, fonetik vasitələrdən vurğu və intonasiya, ədatlar, əlavələr ifadə etməyə xidmət edə bilər.

Bəzi dilçilər ekspressiv funksiyanı dilin əsas funksiyası hesab edirlər. Məsələn, K. Fosslerin fikrincə, dilin kommunikativ funksiyasının insan həyatında bir o qədər böyük rolu yoxdur. O, dilin ekspressiv funksiyasına böyük əhəmiyyət verir və onun öyrənilməsini dilçiliyin əsas vəzifəsi hesab edir. Əlbəttə, bununla razılaşmaq olmaz. İnsan cəmiyyətinin həyati fəaliyyəti üçün dilin kommunikativ funksiyasının əhəmiyyətini qiymətləndirmək çətindir. Bununla belə dilin ekspressiv funksiyasının əhəmiyyətini də azaltmaq düzgün deyildir. V. A. Avrorin haqlı olaraq yazır: «həqiqətdə isə dilin kvmmunikativ və ekspressiv funksiyaları bir medalın iki üzü kimidir. Onların hərəsini ayrılıqda görmək mümkündür, onlar məlum

müstəqilliyə malikdir, lakin onları« birini digərindən ayırmaq qeyri-mümkündür. Bəzi xüsusi hallarda, məsələn, daxili nitq zamanı olduğu kimi, fikrin dil ifadəsi kommunikativ aktdan kənarda həyata keçirilə bilər, fikirlər dilxarici vasitələrlə ifadə ediləndə isə kommunikasiya fikrin dil ifadəsindən kənarda mümkündür, bununla belə, təkcə statistik üstünlüyə görə yox, həm də, bu daha əsasdır, dilin yaranması üçün bilavasitə səbəb olan dilin əsas vəzifəsinə görə qəbul etmək lazımdır ki, dilin bu iki funksiyası zəruri surətdə bir-birini şərtləndirir, sosial əhəmiyyətinə görə isə üstünlük kommunikativ funksiyanın tərəfindədir»21.

Dilçilik ədəbiyyatında bəzən dilin ekspressiv funksiyası informativ funksiya (məlumatın ifadəsi və nitqin vəhdəti kimi), emotiv funksiya (hiss və emosiyanın ifadəsi kimi), volüntativ funksiya (danışanın iradəsinin ifadəsi kimi) terminləri ilə də şərh edilir.

Dilçilik ədəbiy yatında dilin **estetik fuiksiyasından** da bəhs edilir. Dilin estetik funksiyası dilin ekspressiv funksiyası ilə sıx əlaqədardır. Dilin «estetik funksiyası bədii ədəbiyyat və incəsənət sahəsində özünü göstərir. Xalqın estetik mədəniyyətinin (ədəbiyyat və incəsənətinin) inkişafı ilə dilin estetik funksiyasının da rolu yüksəlir; estetik mədəniyyət daha da inkişaf etmiş xalqlarda dilin estetik funksiyasının rolu estetik mədoniyyəti inkişaf etməmişy xalqlara nisbətən xeyli yüksəkdir.

Dilin öyrənilməsi tarixində dilin estetik funksiyasının həddindən artıq şişirdilməsi hallarına da təsadüf edilir. Məsələn, estetik dilçilik məktəbinin ən görkəmli nümayəndəsi K. Fossler dilin estetik funksiyasının öyrənilməsinə, tədqiq edilməsinə daha çox əhəmiyyət verirdi. Dili estetik baxımdan tədqiq etməklə o, dilin inkişaf tarixi ilə mədəniyyətin inkişaf tarixi arasında, bərabərlik işarəsi qoyurdu. Fossler iddia edirdi ki, müəyyən mənada dil incəsənətin bütün növlərini əhatə edir: rəqs jestlər dilidir, rəssamlıq rənglər və xəttlər dilidir, musiqi tonlar dilidir, plastika və memarlıq bərk cisimlər dilidir, poeziya «dillər dilidir». Əlbəttə, dilin estetik funksiyasını bu qədər geniş mənada qəbul etmək, onu dillə bilavasitə əlaqəsi olmayan sahələrə də şamil etmək səhvdir. Lakin eyni zamanda dilin inkişafında, cəmiyyətin estetik mədəniyyətinin inkişafında dilin estetik funksiyasının rolunu azaltmaq da düzgün deyildir.

**Dilin ideoloji funksiyası sosioloji** dilçiliyin görkəmli nümayəndələrindən biri olan Y. D. Deşeriyev tərəfindən qeyd edilir 22. İdeoloji funksiya dilin mühüm sosial funksiyalarından biridir. Bu funksiya istər bütövlükdə dildə, istərsə dilin hər hansı bir ünsüründə təzahür edə bilər. N. V. Voloşinəv yazır ki, -söz «istənilən ideoloji funksiyanı daşıya bilər» 23.

Dilin ideoloji funksiyası ilkin ixtisaslaşmış münasibətlər üzərində qurulan törəmə ixtisaslaşmış münasibətlərlə bağlıdır. Məsələn, varlıq mövcud olan bir şeyi göstərir, lakin dindar əbədi varlıq dedikdə allahı nəzərdə tutur.

*Allah bağışlasın, allah əvəzini versin, allahın lənətinə gələsən, allah əcrini versin, allah günahından*

*keçsin, allah amanında, ümid allaha* tipli söz birləşmələri və cümlələr müəyyən ideoloji funksiya daşımış və dini ideologiyaya xidmət etmişdir. Müasir ümumxalq dilində isə belə ifadələr neytrallaşmışdır.

«Dildə və nitqdə ideoloji funksiyanın ifadəsini, fərqləndirmək lazımdır.

Nitq ideoloji funksiyanı ifadə etmək üçün, demək: olar ki, qeyri-məhdud inkişafa malikdir. Nitqin ideoloji funksiyası cümlələrdə, bütöv kontekstdə, söz birləşmələrində, sözlərdə, ayrı-ayrı səslərdə və səs birləşmələrində, intonasiyada, vurğuda və s. ifadə edilə bilər (hər şeydən əvvəl şifahi nitq nəzərdə tutulur). Lazılı nitq də ideoloji funksiyanı ifadə etmək üçün böyük imkanlara malikdir, lakin şifahi nitq üçün səciyyəvi olan variasiyalara malik deyildir»24.

Dilin funksiyaları bütün həlqələri bir-biri ilə qarşılıqlı əlaqədə olan və bir-birini qarşılıqlı. Surətdə şərtləndirən sistemi təşkil edir. Dilin funksiyaları arasındakı əlaqələr o qədər sıxdır ki, bütün sistemi çoxşaxəli, çoxcəhətli sistem kimi də qəbul etmək olar. Buna görə də dilin polifunksiyalı (çoxfunksiyalı) olduğunu söyləyən dilçilərlə yanaşı, dilin mono-funksiyalı (təkfunksiyalı) olduğunu soyləyən dilçilərə də haqq qazandırmaq lazımdır. Əslində dilin təkfunksiyalılığını söyləyənlər dilin limitləşdirilməmiş (məhdudlaşdırılmamış) polifunksiyalılığını söyləyən dilçilərə nisbətən həqiqətə daha yaxındırlar.

Daha bir məsələni aydınlaşdıraq. Belə bir sual meydana çıxır: dilin inkişafı ilə əlaqədar dilin funksiyaları sayca çoxalıb yaxud azala bilərmi, genişlənə yaxud darala bilərmi? Yaxın Gələcək üçün dilin funksiyalarında həm kəmiyyət, həm də keyfiyyətcə (məzmunca) dəyişiklik baş verəcəyini gözləmək lazım deyildir. Əlbəttə, ola bilər ki, dilin funksiyaları başqa tədqiqatçılar tərəfindən çox yaxud az göstərilsin, ola bilər ki, bizim səliqəsizliyimiz, savadımızın azlıqı yaxud indi bizə məlum olmayan hər hansı bir səbəb üzündən dilin yeni bir funksiyası müəyyənləşdirilsin (yaransın yox, müəyyənləşdirilsin!). Bu, dilin funksiyalarının inkişafı yox, dilin funksiyaları haqqında bizim biliyimizin inkişafı olardı.

**Dilə yardımçı vasitələr**. insanın əmək fəaliyyətində bir sıra qeyri-dil vasitələr dilə yardımçı vasitə kimi çıxış edir. Belə vasitələrdən bir neçəsini göstərək.

**Yazı.** Dilə yardımçı vasitələrdən ən çox yayılmışı və inkişaf etmişi yazıdır. Yazı insanlar arasındakı ünsiyyətin zaman və məkan məhdudiyyətini aradan qaldırır: onun vasitəsi ilə, bir tərəfdən, yaxındakı adamla olduğu kimi, uzaqdakı, çox uzaqdakı adamla da ünsiyyət saxlamaq mümkündür; digər tərəfdən, yazı vasitəsilə müasir olduğun adamla ünsiyyət saxlamaq mümkün olduğu kimi, xeyli əvvəllər yaşamış yaxud xeyli sonralar yaşayacaq adamla da ünsiyyət saxlamaq mümkündür.

**Mnemonik vasitələr**. Mnemonik vasitələr yaddasaxlamanı və ifadəni asanlaşdırır. Qeyd etmək lazımdır ki, dil özü də çox vaxt mnemonik vasitə kimi çıxış edir, lakin o, yeganə mnemonik vasitə deyildir. Barmağa ip bağlamaq, yaylığın ucunu düyünləmək, tələbələr arasında barmağın üstündə üstəgəl işarəsi

qoymaq mnemonik vasitələrə misal ola bilər. Mnemonik vasitələr inkişafın aşağı pilləsində olan qəbilələr arasınd daha çox yayılmışdı.

**Barmaqhesabı**. Dilə yardımçı vasitələrdən biri də barmaqhesabıdır. N. N. Mikluxo-Maklay papuasların barmaqhesabı hesablamalarını təsvir etmişdir. Bu təsvir barmaqhesabının dilə nə qədər yaxın olduğunu göstərir: «Papuas müəyyən bir səs, məsələn, «be,be,be...» çıxararaq bir-birinin ardınca barmaqlarını bükür. Beşə; qədər saydıqda o, «ibon-be» (əl) deyir. Sonra o, yenidən «be, be...» təkrar edərək «ibon-ali»yə (iki əl) çatanadək o biri əlinin barmaqlarını bükür. Sonra o, «samba be» və «samba-ali»yə (bir ayaq, iki ayaq) çatanadək «be, be... » deyə-deyə davam etdirir». Buna bənzər barmaqhesabı Cənubi Afrika qəbilələri arasında da mövçuddur. Burada hesablamada üç adam iştirak edir: birinci adam təkliklər, ikinci adam onluqlar, üçüncü adam yüzlüklər üzrə «mütəxəssisləşmişdir» (birinci adam on barmağını bükdükdən sonra ikinci adam bir barmağını, birinci adam ikinci dəfə on barmağını bükdükdən sonra ikinci adam iki barmağını bükür və s; üçüncü adam da yüzlükləri bu qayda ilə hesablayır).

**Plan və xəritələr** də dilə yardımçı vasitələrdir. Bunlar istər şifahi, istərsə yazılı ünsiyyətə yardımçı rol oynayır. Müəyyən bir yeri tez tapmaq üçün şifahi surətdə izahat vermək də olar, yazı vasitəsilə təsvir etmək də olar, bunların əvəzinə onun planını cızmaq yaxud xəritəsini çəkmək də olar.

İstehsalatda işlədilən müxtəlif **sxem və çertyojlar** vəzifəsinə görə plan və xəritələrə yaxındır.

**Siqnallar** vasitəsilə ünsiyyət saxlamaq da dilə yardımçı vasitələrdəndir. Keçmişdə müasir texniki vasitələr mövcud olmadığı bir dövrdə müəyyən bir məlumatı uzaq məsafələrə nəql etmək üçün müxtəlif siqnallardan istifadə edilmişdir. Belə siqnallardan biri oddur. Od siqnalından, təbii ki, qaranlıqda - gecələr istifadə edilmişdir. Adətən, od siqnalı vasitəsini tonqallar görmüşdür. Tonqalların ifadə etdiyi məna onların sayı və düzülüşü ilə müəyyənləşdirilmişdir. Mənalar qabaqcadan əldə edilmiş razılıq əsasinda şərtləndirilir.

İşıq siqnalları da dilə yardımçı vasitələrdəndir. İşıq siqnallarından qədim zamanlardan indiyədək istifadə edilir. Buna görə də nağıllarda, dastanlarda işıq siqnallarından istifadə edilməsi hallarına kifayət qədər nümunə göstərmək olar. Müasir dövrdə işıq siqiallarına ən sadə nümunə (çoxlu nümunələrdən biri kimi) olaraq işıqforları göstərmək olar: qırmızı işıq-təhlükə, qadağan, sarı işıq - diqqət, yaşıl işıq – icazə rəmzidir.

Dilçilik ədəbiyyatında Amerika hindu qəbilələrinin tüstü və güzgü siqnallarından da ünsiyyət üçün istifadə etdikləri haqda çoxlu məlumat vardır. Tüstü siqnalından gündüzlər istifadə edilir. Tüstünün qalınlığı, müəyyən fasilələrlə buraxılması, tonqalların sayı və s. müxtəlif anlayışlar ifadə edir. Tüstünün keyfiyyətini xüsusi siqnalçılar idarə edir; məsələn, tüstünu qalınlaşdırmaq üçün tonqala yaş çırpı (ümumiyyətlə, pis yanıb çox tüstüləyən bir şey) atırlar, tüstünü fasilələrlə buraxmaq üçün göndən istifadə edirlər - gönü tüstünün

üstünə atdıqda tüstü kəsilir, götürdükdə tüstü yenidən yüksəlir.

Şimali Amerika hindu qəbilələrinin güzgü siqnallarından məlumatın nəql, edilməsi, ünsiyyət vasitəsi kimi istifadə etmələri haqqında Amerika etnoqrafı Riken məlumat verir. Onun məlumatina görə, o, bir hindu qəbiləsinin ərazisindən başqa bir hindu qəbiləsinin ərazisinə gedərkən onu müşayiət edən hindular dərədəki hindularla güzgü vasitəsi ilə danışmışlar: yuxarıdakılar güzgüdən işıq salmaqla nə isə demiş və aşağıdakılar da güzgüdən işıq salmaqla cavab vermişlər.

A. A. Leontyev estetik funksiyada dilin ekvivalentlərindən danışarkən yazır: «Estetik funksiyada ədəbi əsərlərin müxtəlif dilxarici komponentləri dilin ekvivalentləri kimi çıxış edə bilər. Buraya, əvvələn, şrift tərtibinin xüsusiyyətləri və ümumiyyətlə səhifələmə; ikincisi, şəkil yaxud rəng daxildir: məsələn, Lorens Sternin «Tristram Şendi» əsərində nəqletmənin gedişini təsvir edən əyrini, Rablenin «Qarqantüa və-Pantaqrüel» əsərində butulkanın təsvirini və s. göstərək; üçüncüsü, həmin funksiyada, necə deyərlər, boş yer də çıxış edə bilər. Bu hadisə ilə Y. N. Tınyanov xüsusi olaraq məşğul olmuşdur. O, xüsusən «Yevgeni Onekin» əsərində real nəzərə çarpdırılan misralarla heç cür uyğun gəlməyən, şairin muəyyən məqsədlə daxil etdiyi buraxılmış bəndlərin mühüm kompozisiya əhəmiyyətini qeyd edir. Bu buraxılmış misralar haqqında Y. S. Stepanov yazır: «Semantikasına görə... onların rolu budur ki, onlar əsərin daxili zamanını rəmzləşdirir. Əvvəlki bəndə yanaşan bənd onun davamı kimi oxunur. Əvvəlki bənddən ekvivalenti ilə-çox nöqtə ilə ayrılan bənd əsərdə keçən zamana görə ondan geri qalan kimi oxunur»25. Qeyd etmək lazımdır ki, bütün bu vasitələr dili əvəz etmir, ona yardımçı vasitələrdir və insanın fəaliyyəti prosesində onlardan bu və ya digər dərəcədə istifadə edilir.

**Nitqin funksiyaları**. Dilin funksiyaları birlikdə hər hansı dilə xas xüsusiyyətdir, halbuki nitqin heç də bütün funksiyaları bütün dillərə xas xüsusiyyət deyildir. Bu funksiyalardan bəzisi dillərin yalnız bir qisminə aid olur və həmin dildə danışan xalqın ictimai-tarixi inkişaf xüsusiyyətləri ilə əlaqədardır. Dilin funksiyaları daim qüvvədədir, dildən istifadə edildiyi bütün praktik hallarda bunlar işlədilir. Nitqin funksiyaları isə okkazional xüsusiyyət daşıyır, söyləmin konkret məqsədindən asılıdır, A. A. Leontyevin termini ilə desək, fakültətiv mahiyyət daşıyır. Dilin funksiyaları toplu halda təzahür edir; müəyyən konkret bir təsadüfdə, vəziyyətdə bütün funksiyaların nisbi təsir gücü özünü eyni cür göstərməsə də hər halda bu funksiyalar biri digəri olmadan keçinə bilmir. Nitqin funksiyaları isə, dilin funksiyalarını müşayiət edərək, bir qayda olaraq, tək-tək fəaliyyət göstərir, nadir hallarda biri digəri ilə kombinasiyada çıxış edir, lakin nitqin bütün funksiyaları heç vaxt bir yerdə təzahür etmir, fəaliyyət göstərmir. Dilin funksiyaları bütövlükdə dilə xas xüsusiyyətdir, buna görə də onlardan hər biri üçün ayrıca xüsusi dil vəsaiti nəzərdə tutulmur, daha doğrusu, hər birinin xüsusi dil vəsaiti olmur. Nitqin funksiyaları ayrı-ayrı nitq aktlarında təzahür etdiyi üçün xüsusi olaraq onlar üçün «ayrılmış», onlara «təhkim edilmiş» dil vasitələrinə malikdir. Bütün bu fərqlər aydın surətdə göstərir ki, dilin funksiyaları ilə nitqin funksiyaları bir-birindən fərqləndirilməlidir.

Nitqin funksiyalarından aşağıdakıları göstərmək olar: 1) nitqin magik (ovsun) funksiyası, 2) nitqin nominativ yaxud «marka» funksiyası, 3) nitqin diakritik funksiyası, 4) nitqin okkazional funksiyası, 5) nitqin siqnal funksiyası, 6) nitqin emotiv (yaxud emotiv-voluntativ) funksiyası, 7) nitqin ekspressiv funksiyası, 8) nitqin estetik yaxud poetik funksiyası, 9) nitqin etnik (yaxud milli) funksiyası, 10) nitqin fətik funksnyası.

**Nitqin magik funksiyası**. Amerika hinduları, Avstraliya və Okeaniyanın aborigenləri, Afrikanın hələ ibtidai qəbilə quruluşu dövrü keçirən qəbilələri arasında nitqin magik funksiyası geniş yayılmışdır. Onlar sözün fövqəladə və sirli təsir qüvvəsinə malik olduğuna inanır, inanırlar ki, sözün gücü ilə ətraf mühitə təsir etmək, onu dəyişmək, adamın adını bilməklə ona xətər yetirmək olar. hətta inkişaf etmiş cəmiyyətlərdə də dini yaxud dindən əvvəlki dünyagörüşə malik olan bəzi adamlar öz dillərində nitqdən magik yaxud ona yaxın məqsədlər üçün istifadə edirlər. Onlar nitqdən ünsiyyət vasitəsi kimi deyil, ruhlarla danışmaq, təbiətə təsir etmək və s. üçün istifadə edirlər. Azərbaycanlılar arasında geniş yayılmış dua yazdırmaq, cadu elətdirmək nitqin magik funksiyasından başqa bir şey deyildir. Novruz bayramından əvvəlki çərşənbə axşamı adamların od üzərindən tullanıb «ağırımı, buğurumu yer götürsün, ruzumu allah yetirsin» söyləməsi də nitqin magik funksiyasına misal ola bilər. Babam mənə qəzəblənmiş iti sakitləşdirmək üçün belə bir dua oxumağı öyrətmişdi: «Kəlbuhun basitun ziraehi bil vəsit» (sözlərin nə demək olduğunu bilmirəm, hətta düzgünlüyünə də zəmanət vermirəm). Bu da nitqin magik funksiyasıdır. A. Q. Stirkin yazır ki, «ibtidai insan dildən təkcə təfəkkür əsası və ünsiyyət vasitəsi mənasında alət kimi istifadə etmirdi, həm də təbiət hadisələrinə təsir aləti mənasında istifadə edirdi, elə düşünürdü ki, arzu etdiyi məqsədə magik hərəkətlərdəki yalvarış və ovsunun köməyi ilə çata bilər»[1]. İndi belə hətta ali təhsil almış, hər cür elmlərlə silahlanmış, tamamilə mədəni adamların monoteist (təkallahlı) dinlərdə-allaha, peyğəmbərə, imamlara yalvarış və ovsunla müraciət etməsi də nitqin magik funksiyasıdır və sözün ecazkar qüvvəsinə inanmaqdan başqa bir şey deyildir.

İnkişaf etmiş cəmiyyətlərdə sözün magik funksiyası özünü tabu və evfemizlərin mövcudluğunda göstərir.

**Nitqin nominativ yaxud «marka» funksiyası**. Nitqin bu funksiyasında əsas məqsəd fikri müəyyən bir adresata (dinləyənə) çatdırmaq, insanlar arasında kontakt (əlaqə) yaratmaq deyil, fikrin bu və ya digər obyektini göstərmək yaxud müəyyənləşdirməkdir. Adətən, nitqin bu funksiyasında adlıq cümlələrdən və terminəloji leksikadan istifadə edilir. Nitqin nominativ funksiyasından konkret obyektləri - coğrafi məntəqələrin, maqazaların, müəssisələrin, idarələrin, sənaye məhsulunun adlandırılmasında istifadə edilir. Dilin reklam məqsədilə işlədilməsi də nitqin nominativ funksiyasına nümunə ola bilər.

**Nitqin diakritik funksiyası**. Nitqin qeyri-nitqi situasiyaları korreksiya etmək (düzəltmək) yaxud tamamlamaq məqsədilə işlədilməsinə nitqin diakritik funksiyası deyilir. Məsələn, *Xahiş edirəm, mənə*

*Gəncə-şəhərinədək bir bilet və oradan geriyə Bakı şəhdrinədək bir bilet verin əvəzinə Gəncə - oraya və geriyə*-deyirik. göstərmə işarəsi də nitqin bu funksiyasına aiddir.

**Nitqin siqnal funksiyası**. Nitqin bu funksiyası diakritik funksiya ilə sıx əlaqədardır; onları birləşdirmək də olar. Nitqin siqnal funksiyasından nitq vasitələrindən adresatı xəbərdar etmək və 26 adresatın müəyyən reaksiya verməsinə nail olmaq məqsədilə istifadə edilməsidir. Adresat insan da, heyvan da, gələcəkdə isə nitqlə idarə edilən mexanizm də ola bilər. Bu zaman xüsusi işlənilmiş səs birləşmələri, söz birləşmələri, abbreviaturalaşdırılmış (iki və daha çox sözdən ixtisarla düzəldilmiş söz) cümlələr, habelə xüsusi intonasiya şəklində nitq siqnallarından yaxud komandalardan istifadə edilir. Nitqin siqnal funksiyasından xüsusən insanların əmək fəaliyyətində daha çox istifadə edilir. Nitqin belə simpraktik istifadəsi nə yükləmə və yük boşaltma zamanı işlədilən «mayna- vira» tipli nitq siqnalları yarımsistemini nümunə göstərmək olar.

**Nitqin okkazional funksiyası**. Nitqin bu funksiyası nitqə qeyri-nitqi situasiyasının daxil edilməsində ozünü göstərir. Bu, konkret nitq situasiyasında nitq söyləminin bu və ya digər ekvivalent okkazional əvəzlənməsidir. Məsələn, bir adamın küt (savadsız) olduğunu göstərmək üçün onun adını çəkdikdən sonra barmağımızla stolu yaxud divarı taqqıldadırıq. Daha iki misal göstərək. Bir adamın axmaq olduğunu göstərmək üçün barmağımızı gicgahımıza dayayıb fırladırıq, ovcumuzu havaya açıq tutub inləyirik. Bir nəfərin sərxoş olduğunu bildirmək üçün boğazımıza çırtma vururuq.

**Nitqin fətik funksiyası**. Nitqdən danışanla dinləyən arasında kontakt yaratmaq üçün istifadə edilməsinə nitqin fətik yaxud kontakt funksiyası deyilir. Görünür, nitqin birinci siqnal, ilk növbədə vokativ şəkildə işlədilməsi ilə əlaqədar olan çoxlu halları nitqin fətik funksiyası ilə əlaqələndirmək lazımdır. Vokativlərin, xüsusən fonetik vokativlərın bəzi xüsusiyyətlərini, Avropa dillərinin əksəriyyətindəki zəifləmiş (reduksiya olunmuş) sintaktik tərkibləri də, görünür, nitqin fətik funksiyasına aid etmək lazımdır.

**Nitqin emotiv funksiyası**. Nitqin emotiv yaxud emotiv-volüntativ funksiyası danışanın hiss və ifadəsini ifadə etmək məqsədilə işlədilən söyləmlərdə yaxud danışan dinləyəni müəyyən bir hərəkəti etməyə sövq etdikdə təzahür edir. Nitqin emotiv funksiyasında rəngarəng intonasiya vasitələrindən, ixtisaslaşdırılmış söyləmlərdən, seçmə leksikadan və spesifik cümlə konstruksiyalarından istifadə edilir; bu funksiyanın, necə deyərlər, özünəməxsus dil vasitələri vardır.

**Nitqin- ekspressiv funksiyası**. Nitqin ekspressiv funksiyası dilin ekspressiv funksiyası ilə sıx əlaqədardır, lakin dilçilik ədəbiyyatında, habelə psikologiyaya həsr edilmiş ədəbiyyatda dilin ekspressiv funksiyası ətraflı tədqiq edildiyi halda nitqin ekspressiv funksiyası zəif tədqiq edilmişdir. Elmi ədəbiyyatın əksəriyyətində nitqin bu funksiyasının mövçudluğu heç göstərilməmiş, tək-tük ədəbiyyatda nitqin ekspressiv funksiyasının da mövcud olduğu göstərilir, lakin bu funksiyanın ifadə vasitələri, səciyyəvi xüsusiyyətləri

təhlil edilmir.

Nitqin ekspressiv funksiyası fikrin ifadəli verilməsinə xidmət etdiyi üçün emosional dil vahidlərindən istifadə edir. Belə dil vahidlərinə xüsusi leksik vahidlər, nidalar, habelə vurğu, intonasiya və s. aid ediləbilər.

**Nitqin estetik yaxud poetik funksiyası.** Elmi ədəbiyyatda nitqin bu funksiyası poetik funksiya da adlanır. Bu funksiya dildən başqa poetika və ədəbiyyata da aid olduğu üçün ədəbiyyatda onun geniş tədqiqinə rast gəlirik. Düzdür, elmi ədəbiyyatda daha çox nitqin poetik funksiyasında işlədilən dil vasitələrindən söhbət gedir, ancaq bu funksiyanın özü də kifayət qədər səciyyələndirilir.

Dilçilik ədəbiyyatında estetik (poetik) funksiya gah dilə, gah nitqə aid edilir. Bu ondan irəli gəlir ki, estetik funksiya bədii ədəbiyyatda çox geniş yayılmış dil vasitələrindən istifadə edir və filoloqlar arasında geniş nüfuza malikdir, digər tərəfdən, bu funksiyanın sırf özünəməxsus nitq ifadə vasitələri vardır. Məsələn, Praqa dilçilik məktəbinin nümayəndələri öz «Tezislərində» onu sırf dil funksiyası hesab edir, ona geniş yer verir və poetik funksiyanı nitq funksiyası hesab etməyi onun əhəmiyyətini azaltmaq kimi qiymətləndirirlər. Düzdür, onlar bu funksiyanı səciyyələndirərkən aydın terminologiyadan istifadə etmirlər, gah dilin poetik funksiyası, gah poetik dil, gah poetik yaxud emosional, ya da affektiv nitq fəaliyyətindən danışırlar, başqa sözlə desək, dilin yaxud nitqin funksiyalarını, xüsusi növ nitq quruluşunu və dil strüktürünün janr-üslub stratifikasını fərqləndirmirlər.

Praqa dilçilik məktəbinin nümayəndələri poetik nitqin onu poetik olmayan nitqdən fərqləndirən əsas xüsusiyyətini onun dilxarici reallığa başqa cür münasibətində görürdülər. Ünsiyyət funksiyasına malik olan nitq işarə edilənə yönəldiyi halda poetik funksiyaya malik nitq işarənin özünə yönəldilir. Bu sözlər poetik nitqə düzgün qiymət verir. Lakin əlavə etmək lazımdır ki, normal poeziya təkcə işarəyə yox, həm də işarə edilənə yönəldilir, çünki belə poeziya özünün hər bir ünsürü ilə dildən kənarda yerləşən müəyyən bir məna ifadə edir.

A. Martine yazır ki, estetik funksiya dilin kommuni-kativ və ekspressiv funksiyaları ilə sıx əlaqədardır.

**Nitqin etnik funksiyası.** Dilçilik ədəbiyyatında bəzən nitqin etnik, yəni danışanın milli mənsubiyyətini ifadəetmə funksiyasının olduğu da göstərilir. Bu funksiya da gah dilə, gah nitqə aid edilir. A. A. Leontyev onu dilin milli-mədəni funksiyası, A. Q. Ağayev isə dilin etnik funksiyası adlandırır. A. Q. Ağayev bu funksiya haqqında «millətin təşəkkülü və qorunması faktoru» kimi, «etnikdaxili birləşmə» funksiyası kimi danışır 27. M. N. Quboqlo da dili mühüm etnik müəyyənləşdirici hesab edir.

Bu sözlərdə müəyyən qədər həqiqət vardır. Dildə elə ünsürlər vardır ki, bunlar yalnız həmin dilə aid. ola bilər, başqa bir dildə həmin ünsürləri tapmaq qeyri-mümkündür. Nitqin bu xüsusiyyəti onun etnik

funksiyası sayıla bilər.

Nitq dilin xarici təzahürü, onun konkret həyata keçirilməsidir. Buna görə də təbii olaraq hər hansı nitqdə dilin funksiyaları da öz əksini tapmalıdır və tapır. Dil funksiyalarından əlavə nitqin yalnız özünə məxsus olan funksiyaları da mövcuddur. Məhz buna görədir ki, nitqin bəzi funksiyaları dilin funksiyalarında özünü göstərmir, bəzi funksiyaları ilə yanaşı təzahür edir.

**Nitqə yardımçı vasitələr**. Nitqin ekspressiv funksiyasında müxtəlif paralinqvistik hadisələr nitqə yardımçı vasitələr kimi çıxış edə bilər. Belə paralinqvistik hadisələrə mənalı hərəkətlər - mimika və jestlər nümunə ola bilər. Üzün, gözlərin, dodaqların, burnunun və alının hərəkəti vasitəsilə fikrin ifadəsinə mimika deyilir; əlin, qolun, ayağın, başın və bədənin hərəkəti ilə fikrin ifadəsinə jest deyilir.

Müasir dövrdə paralinqvistika ilə istər dünyanın hər yerində, istərsə xarici ölkələrdə məşğul olurlar; xaricdə bu haqda hətta monoqrafiya da yazılmışdır. Azərbaycan dilçiliyində paralinqvistika haqqında ilk məlumata Z. Verdiyeva, F. Ağayeva və M. Adilovun yazdıqları «Dilçilik problemləri» (Bakı, 1982, s. 133-149) adlı əsərdə rast gəlirik. Lakin qeyd etmək lazımdır ki, paralinqvistik hadisələr nəinki Azərbaycan dilçiliyində, hətta inkişaf etmiş rus dilçiliyində belə hələ tədqiq edilməmişdir. Paralinqvistik hadisələrin tədqiqinin dilçilik üçün, dilin öyrənilməsi üçün böyük ahəmiyyəti vardır. Məsələn, əcnəbi müəyyən bir dildə nə qədər yaxşı danışsa da həmin dildə danışan adam (əcnəbinin danışdığı dil ana dili olan adam) onun nitqini düzgün qavramaz. Dünyada elə dillər vardır ki, paralinqvistik hadisələrsiz, məsələn, jestlərsiz, keçinə bilmir. Deyildiyinə görə, italyan dilində, xüsusən onun neapolitan dialektində jestlərsiz dainşdıqda təmiz italyan dilində danışmağına baxmayaraq italyanlar səni başa duşmur.

Mimika və jestlərin mənası əvvəlcədən şərtləndirilməlidir, belə olmadıqda onlar ünsiyyətə xidmət edə bilməz: mimika ve jestlə danışanlar bir-birini başa düşməz. Molla Nəsrəddinin lətifələrindən biri bunucü vasitəsilə bir çox söhbət etdikdən sonra, bu məmləkətin alimləri ilə görüşmək istədiyini bildirir. Teymur bütün alimləri yığır. Ancaq bu alimlərdən heç biri bu əcnəbi alimlə mübahisəyə girişməyə cürət eləmir. Axırda bunların bu qədər qorxduqlarını görən Molla mübahisəni öz boynuna götürür. Məclis qurulur. Ocnəbi alim yerdə bir dairə çəkib üzünü Mollaya tutur. Molla bir az fikirləşib dairəni iki yerə bölür. Görür alim danışmır. Bir cızıq da çəkib bölür dörd yerə, üç hissəsini özünə tərəf çəkir, bir hissəsini isə əcnəbi alimə verir kimi hərəkət eləyir. Əcnəbi alim razılaşır. Bundan sonra alim əlini arxası yerə doğru yumulu bir vəziyyətdə tutaraq Molladan cavab gözləyir. Molla da əlini tamamilə bunun əksinə, yəni barmaqlarını yerə doğru tutmaqla cavab verir. Alim buna da razı olur. Uçüncü dəfə alim özünü işarə edərək yeyir kimi hərəkət göstərir, Molla da tez cibindən bir yumurta çıxardır və qollarını quş qanadı kimi çırpır.

Alim gülərək Mollanın əlindən öpur. Molla gedir. Teymur tərcuməçi vasitəsilə alimə müraciət edərək soruşur:

- Bu işarələrdən biz heç bir şey anlamadıq.

Alim deyir:

- Dünya haqqında fikirlər müxtəlifdir. Mən yerdə o dairəni cızmaqda yer kürəsinin yumru olduğunu deyərək sizin alimin bu barədə fikrini bilmək istədim. Maşallah sizin alimə, tez kürənin ekvatorunu çəkdi, sonra dörd yerə bölərək üç hissəsinin su, bir hissəsinin quru olduğunu qeyd etdi. Sonra mən kürə üzərində olan bitkilərin həyatı haqqında onun fikrini bilmək istədim. Aliminiz buna da doğru cavab verdi. Bütün bitkilərin hamısının yağış və günəş şüaları vasitəsilə yaşadığını dedi. Üçüncü sual olaraq mən insanlar və heyvanlar haqqında onun fikrini bilmək istədikdə o tez, bir yumurta ilə quşların dəxi bu cinsə aid olduqlarını mənim yadıma saldı.

Alim getdikdən sonra Teymur Mollanı çağırıb onun alimlə olan sual-cavabı haqqında soruşur. , Molla deyir:

- Eh, alim... Mən də elə bilirdim ki, doğrudan da bir dərin adamdır. O lap sarsaq, qarınqulunun birisiymiş ki... Əvvəl yerdə bir dairə çəkib mənə dedi ki, ay indi burada bir tava qayğanaq ola idi. Mən də tez yarı bölüb dedim ki, hamısını sənə verməzlər, biz də varıq. Gördüm,. aşnam razı olmur. Tez bir də ortadan bölüb üç payını özümə götürdüm ki, «görməmişlik elərsən, belə olar». Kişi gördü ki, qayqanaq əldən gedəcək, razı oldu. İkinci dəfə əlini göyə tutdu ki, «bir qazan plovla necəsən?»-Mən də əlimi üzü aşağı tutub dedim: «üstündə qarası olsa, yeyərəm». Üçüncü dəfə qarnını mənə göstərib dedi: «yoldan gəlmişəm, acam». Mən də tez cibimdən yumurtanı çıxartdım ki; «canın üçün, mən özüm səndən də acam, özü də cibimdə bircə dənə yumurta var, heç üz vurma, verəbilməyəcəyəm» 28.

Mimika və jestlər situativ şərtləndirildiyi kim» milli baxımdan da şərtlənir - eyni bir jest müxtəlif xalqlarda müxtəlif məna ifadə edir; məsələn, başın yuxarıdan aşağıya doğru tərpədilməsi bəzi xalqlarda «bəli», başqalarında «xeyir» mənası ifadə edir.

Nitqin diakritik funksiyasında işarə jestləri dilin ekivalenti kimi çıxış edir.

Nitqin okkazional funksiyasında da yardımçı vasitələrdən istifadə edilir. Məsələn, birinin savadsız yaxud axmaq olduğunu demək istədikdə stolu yaxud divarı tıqqıldadırıq, birinin dəli olduğunu göstərmək istədikdə isə şəhadət barmağımızı gicgahımıza dayayıb fırladırıq.

İstər dilə, istərsə də nitqə yardımçı vasitələr müstəqil işlənmir, hətta müstəqil mənaya da malik deyildir; onlar yalnız dillə və nitqlə birlikdə işlənir və öz semantik mənalarını da yalnız dil və nitq əhatəsində, mühitində alır.

1- V. A. Zveqintsev. Teoretiçeskaya i prikaladnaya linqvistika. M.,1969, s. 19.

2- K İ. Platonov. Slova kak fizioloqiçeskiy i leçebniy faktor,M., 1962.

3, 4- V. F. Porşnev. O naçale çeloveçeskoy istorii

5.  B. F. Porşnev. O naçale çeloveçeskoy istorii

6, 7. -A. P. Potseluevskii. K voprosü o drevneyşem tipe zvukovoy reçi

8- Denotat - müvafiq dil vahidinin əks etdirdiyi xarici aləmin əşya və hadisələri.

9- Formant-sözdüzəldici və sözdəyişdirici şəkilçilərin ümumi adı.

10 -B. P. Porşnev. O naçale çeloveçeskoy istorii

11-Sintaqm-1) təyin və təyinlənən iki üzvün birləşməsindən ibarət vahid, 2) məna bitkinliyinə malik ritotik söz qrupu.

12 - F.P.Filin. Problemi sosyalnoy obslovulennosti yazika. “Yazik i obşestvo  Tezisi dokladov” 1966

13-Bax: K. Yakobson. “Linquistics and poetics. Style in language. N.York- London 1960

14,  15. -Y. D. Deşeriev. Sotsialnaya linqvistika, 1977

16- F. Kainz. Psycholoqie der Sprache.  Stuttgrt 1941

17- A. R. Lurıya. Mozq çeloveka i psikoloqiçeskie protsessı, 1970

18-. B. F. Porşnev. O Naçale çelovoçeskoy istori

19- A.A.Leontyev. Yazik Reç Reçevaya Deyatelnost 1969

20- A. Qurbanov. Ümumi dilçilik. Bakı, 1977

21- V. A.Aerorin. Problemı izuçenia funktsionalnoi storonı yazıka. 1975

22-. D. Deşeriev. Sotsialnaya linqvistka

23- V. II Voloşinəv. Marksizm i Filosofiya Yazıka  1929.

24-. D. Deşeriev. Sotsialnaya linqvistka

25- A. A Leontiev. Yazık, reç, reçevaya deyatelnost 1969,

26- A Q. Spirkin. Proisxojdenie yazıka i eqo rol v formirovanin mışlenia. «Mışlenie i yazık», 1957,

27- A.Q.Ağaev, Funktsi yazıka kak etniçeskovo priznaka, “Yazik i obşestva”. 1968.

28- Molla Nəsrəddinin lətifələri. Bakı